20 oktyabr 2023 №78 (2047)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Vətən müharibəsinin Zəfər soraqlı üçüncü şəhəri

## 20 oktyabr Zəngilan Şəhəri Günüdür








Azərbaycanın ən yeni tarixinə şərəf və ləyaqət salnaməsi olaraq yazılan 2020-ci il Vətən müharibəsinin Zəfər soraqlı günlərindən biri də 20 oktyabrdır. Bu gün Zəngilan şəhərinin işğaldan azad olunmasının üçüncü ildönümüdür.

"Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq. Xalqımız döyüş meydanından, cəbhə bölgəsindən səbirsizliklə yeni xəbərlər gözləyir. Mən çox şadam və mən xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram" – Prezident, Ali Baş Komandan İlham Əliyev bu tarixi sözləri 2020-ci il oktyabrın 20-də Zəngilanın azad olunması ilə bağlı xalqa müraciətində demişdi.

Zəngilan Cəbrayıl (4 oktyabr) və Füzulidən (17 oktyabr) sonra Vətən müharibəsində azadlığa qovuşan üçüncü şəhərimiz idi.

Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixdə imzaladığı sərəncamla Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilib. Sərəncama əsasən, 20 oktyabr Zəngilan Şəhəri Günüdür.

Zəngilan torpağı işğaldan azad olunan ərazilərin dirçəlişində bir ilklə də yeni tariximizə düşdü. Otuzillik əsarətdən qurtulan yurd yerlərimizdə yenidən qurulan ilk yaşayış məntəqəsi Zəngilan rayonunun Ağalı kəndi oldu. 2022-ci ilin mayında Ağalı öz sakinlərinə qucaq açdı.

2022-ci ilin 20 oktyabrında isə Şərqi Zəngəzurun hava qapısı olan Zəngilan Beynəlxalq Hava Limanı Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə istifadəyə verildi. Bu, təkcə bu bölgəmizin deyil, ümumilikdə Azərbaycanın inkişafı, eləcə də yerləşdiyimiz coğrafiyanın gələcək mənzərəsi üçün mühüm önəm kəsb edən, Azərbaycan-Türkiyə birlik və bərabərliyi üçün əlamətdar hadisə idi.

Zəngilanın işğaldan azad olunmasının ikinci ildönümündə Prezident İlham Əliyev şəhərdə ilk yaşayış binasının təməlini də qoydu. O vaxtdan ötən bir il içində dövlət başçısı tərəfindən Zəngilan şəhərində ümumilikdə 4 yaşayış kompleksinin təməli atılıb. İnanırıq ki, zəngilanlılar növbəti Şəhər gününü öz şəhərlərində, ev-eşiklərində bayram edəcəklər. Bundan əlavə, ötən müddətdə Zəngilan rayonunun yenidən qurulacaq daha bir neçə kəndinin təməli qoyulub. Tezliklə Ağalının sırasına "çinarlar yurdu"nun digər yaşayış məntəqələri də qoşulacaq...

# "İşğal dövründə köçkünlərlə görüşlərdə dediyim gün gəlib"



Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Füzulinin işğaldan azad edilməsinin üçüncü ildönümü münasibətilə bu rayona səfər edib, yenidən qurulan Füzuli şəhərində daha iki yaşayış məhəlləsinin, eləcə də rayonun Cuvarlı və Qoçəhmədli kəndlərinin təməlini qoyub. Füzuli şəhərində inşa olunan birinci yaşayış məhəlləsində bu ilin avqustundan məskunlaşma başlayıb. Ötən müddətdə 258 ailə (928 nəfər) doğma şəhərdə yeni mənzillərə köçüb və bu proses davam edəcək.

Dövlət başçısının iştirakı ilə oktyabrın 16-da təməli qoyulan ikinci və üçüncü yaşayış məhəllələrində ümumilikdə 5200-dən çox insan yaşayacaq. Baş plana uyğun olaraq, inşa ediləcək ikinci yaşayış kompleksi çoxfunksiyalı zonada yerləşən iki ərazidən ibarətdir. Ümumilikdə 2288 nəfər üçün nəzərdə tutulan kompleks üçün 9 hektardan çox ərazi ayrılıb. İkinci yaşayış kompleksində 1, 2, 3 və 4 otaqlı ümumilikdə 653 mənzil olacaq. Binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək.

Üçüncü yaşayış kompleksi də çoxfunksiyalı zonada yerləşən iki ərazidə inşa olunacaq. Kompleksin inşası üçün 12 hektardan çox torpaq sahəsi ayrılıb. Burada tikiləcək 863 mənzildə 3022 nəfərin yaşaması nəzərdə tutulub.

davamı səh. 2-də

# Azərbaycan qadınlarının qurultayı keçirilib

Oktyabrın 19-da "Gülüstan" Sarayında Azərbaycan Qadınlarının VI Qurultayı keçirilib. Tədbirin əvvəlində Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva dövlət başçısı İlham Əliyevin qurultay iştirakçılarına müraciətini oxuyub.

Müraciətdə qeyd edilir ki, qurultayın Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması dərin məna daşıyır. Azərbaycan qadınlarının 25 il əvvəl Ulu öndərin təşəbbüsü ilə keçirilən ilk qurultayı ölkəmizdə qadın hərəkatının keyfiyyətcə yeni mərhələsini başladıb.

səh. 2

# Vətən, torpaq, bayraq uğrunda əbədiləşən "Oğul"



Oktyabrın 18-də Nizami Kino Mərkəzində Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi, "LİBRAFF" Kitab Mağazalar Şəbəkəsi və "TEAS Press" nəşriyyatının təşkilatı dəstəyi ilə Böyük Britaniyanın "Broken Pot Media" şirkətinin istehsalı olan "Oğul" sənədli filminin nümayişi keçirilib.

Sənədli film Birinci Qarabağ müharibəsi zamanı ermənilər tərəfindən əsir götürülən azərbaycanlı hərbçi Natiq Qasımovdan bəhs edir.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, digər rəsmilər, mədəniyyət xadimləri və ictimaiyyət nümayəndələri, Birinci Qarabağ müharibəsi şəhidi Natiq Qasımovun ailə üzvləri, digər qonaqlar iştirak ediblər.

Mərasimdə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Nümayişdən əvvəl çıxış edən mədəniyyət nazirinin müşaviri Əməkdar incəsənət xadimi Orxan Fikrətoğlu film haqqında fikirlərini bölüşüb. Bildirib ki, Azərbaycan və Böyük Britaniya kinematoqrafçılarının birgə istehsalı olan "Oğul" filmi publisistik kino salnaməsidir.

davamı səh. 3-də

# "Mənim düşüncəm" müsabiqəsinin sərgiləri

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Xətai Rayon İcra Hakimiyyəti, Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində keçirilən "Mənim düşüncəm" adlı yaradıcılıq müsabiqəsinə yekun vurulub.




Xətai Sənət Mərkəzindən bildirilib ki, müsabiqəyə 9-21 yaş arasında 800-dən çox uşaq, yeniyetmə və gənc ümumilikdə 1200-ə qədər əsər təqdim edib.

17-18 oktyabr tarixlərində Xətai Sənət Mərkəzində müsabiqənin sərgiləri təşkil olunub. Ümumilikdə 260-a yaxın əsər sərgilənib.

Azərbaycan Rəssamlar İttifaqının sədr müavini Xalq rəssamı Ağəli İbrahimov, Azərbaycan Dövlət Rəsm Qalereyasının direktor əvəzi Gülşən Qəribli, Xətai Rayon İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsinin əməkdaşı Turan Cəfərova, Xətai uşaq yaradıcılıq studiyasının müəllimi Gündüz Həbibov və Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov çıxış edib, müsabiqə və sərgi barədə fikirlərini bölüşüblər.

Əsəri sərgilənən iştirakçılar sertifikatla, fəal tədris mərkəzləri təşəkkürnamə ilə təltif olunublar.

# Tofiq Bakıxanovun yaradıcılığının 70 illiyinə həsr olunmuş müəllif konserti

Oktyabrın 19-da Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) görkəmli bəstəkar, Xalq artisti Tofiq Bakıxanovun yaradıcılığının və pedaqoji fəaliyyətinin 70 illiyinə həsr olunmuş müəllif konserti keçirilib.

İttifaqın katibi Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova çıxış edərək Qara Qarayev məktəbinin layiqli davamçılarından olan Tofiq Bakıxanovun yaradıcılıq və pedaqoji fəaliyyətindən danışıb. Qeyd edib ki, bəstəkarın çoxşaxəli yaradıcılığı musiqinin müxtəlif janrlarını ehtiva edir.



Konsertdə proqramında bəstəkarın kamera-instrumental və kamera-vokal əsərləri ifa olunub. Kamera ansamblı üçün (viola, violonçel və fortepiano) silsilə şəklində kompozisiyadan ibarət "3 trio", "Bir könülün 18 təranəsi" vokal məcmuəsindən "Bağışla məni", "Günah özümdədir", "Günah etdim", violin və fortepiano üçün "Elegiya", "Skertso" təqdim olunub.

Əsərlər Azərbaycan Dövlət Fortepiano Triosu (Töhfə Babayeva – violin, Səbinə İbrahimova – violonçel, Elnarə Kəbirlinskaya – fortepiano), həmçinin Azərbaycan Dövlət Xor Kapellasının solisti Leyla Dadaşovanın (soprano), Nuranə Qurbanovanın (fortepiano), Lalə Muxtarovanın (violin) ifasında səsləndirilib.

# "Prodüserlərin yüksəlişi" proqramının birinci mərhələsi tamamlanıb

Xəbər verdiyimiz kimi, 9-13 oktyabr tarixlərində Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Respublikası Kino Agentliyi (ARKA) və Azərbaycan Prodüserlər Gildiyasının təşkilatçılığı ilə "Prodüserlərin yüksəlişi" adlı təlim proqramının birinci mərhələsi keçirilib.

Təlimi Avropanın məşhur prodüserləri Martin Hagemann və Titus Kraymberq keçiblər. İştirakçılar Avropa standartlarına uyğun kino layihə sənədlərinin hazırlanması sahəsində baza bilikləri əldə edib, ilin sonunadək isə praktik mentorluq vasitəsilə xarici mentorların nəzarəti və məsləhətləri ilə yeni kino layihələrini hazırlayacaqlar.

davamı səh. 3-də

# "Gəl, səhərim" deyirdi...



Oktyabrın 20-də bənzərsiz səs sahibi, məlahətli ifası ilə milyonların qəlbində iz qoymuş unudulmaz müğənni, pedaqoq, Xalq artisti Şövkət Ələkbərovanın (1922-1993) anadan olmasının 101-ci ildönümüdür. Bu il həm də sənətkarın əbədiyyətə qovuşmasından 30 il ötür.

Bakıda dünyaya göz açan Şövkət Ələkbərova Asəf Zeynallı adına Musiqi Texnikumunda (Hüseynqulu Sarabskinin sinfi) təhsil aldıqdan sonra Dövlət Mahnı və Rəqs Ansamblında solist kimi fəaliyyətə başlayıb. Azərbaycan Dövlət Filarmoniyasında fəaliyyətini davam etdirib, eyni zamanda Bülbül adına Orta İxtisas Musiqi Məktəbində musiqi nəsillərin yetişməsinə öz töhfəsini verib.

Onun ifa etdiyi "Segah", "Qatar", "Şahnaz" muğamları, "Gəl, səhərim", "Sən mənimsən, mən sənin", "Sənsən, ürəyim", "Tez gəl", "Bir könül sındırmışam", "Durnalar", "Ayrılıq", "Axşam", "Ay qadası", "Yar gəldi", "Dərələr" və s. mahnılar musiqisevərlərin könlünü oxşayıb. Cahangir Cahangirovun "Füzuli" kantatası isə müğənninin ecazkar səsində bu gün də dinləyənləri riqqətə gətirir.

Şövkət Ələkbərova keçmiş ittifaq respublikaları ilə yanaşı, Fransa, İsveçrə, İtaliya, Polşa, Türkiyə, Misir, Hindistan, İran, Əfqanıstan, Şri-Lanka, Əlcəzair və s. ölkələrdə qastrollarda olub, musiqi mədəniyyətimizi layiqincə təbliğ edib.

## Akademik Musiqili Teatrda "Leyli və Məcnun"a ictimai baxış



səh. 3

## Müstəqilliyin Bərpası Günü münasibətilə bölgələrdəki mədəniyyət müəssisələrində tədbirlər keçirilib

səh. 4

# "İşğal dövründə köçkünlərlə görüşlərdə dediyim gün gəlib"

## Şəhər və kəndlərimiz ən müasir şəhərsalma prinsipləri əsasında yenidən qurulacaq



*əvvəli səh. 1-də*

Dövlət başçısı Füzuli şəhərində 240 yerlik uşaq bağçasının da təməlini qoyub. Bildirilib ki, uşaq bağçasının inşası üçün 2,4 hektar torpaq sahəsi ayrılıb. Layihəyə əsasən, uşaq bağçası üçün əsas bina, oyun zonası, avtodayanacaq və texniki zona yaradılacaq.

Prezident İlham Əliyev oktyabrın 16-da Füzuli rayonunun Cuvarlı kəndinin təməlinin qoyulması mərasimində iştirak edib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov kənddə görüləcək işlər barədə məlumat verib.

Bildirilib ki, Cuvarlı kəndinin layihələndirilən ümumi ərazisi 115 hektardır. Kəndə 1697 nəfərin köçürülməsi planlaşdırılıb. Burada ümumilikdə 291 fərdi ev və 2-4 mərtəbəli 21 yaşayış binası tikiləcək. Kəndin inşasının birinci mərhələsi üçün 28,1 hektar torpaq sahəsi ayrılıb və 129 fərdi ev tikiləcək. Kənddə çoxfunksiyalı inzibati bina, Bayraq meydanı, kafe-restoran, mərasim evi, çörək sexi, aptek, idman klubu, ailə sağlamlıq mərkəzi, 312 şagird yerlik orta məktəb, 50 yerlik uşaq bağçası, istirahət və yaşıllıq zonaları, klub-icma mərkəzi, kitabxana, ticarət obyekti, bazar və qonaq evinin tikilməsi də planlaşdırılıb.

Prezident tərəfindən təməli qoyulan Qoçəhmədli kəndinin isə layihələndirilən ümumi ərazisi 94,62 hektardır. Kəndə 1364 nəfərin köçürülməsi nəzərdə tutulub. Ümumilikdə 341 fərdi evin tikilməsi planlaşdırılıb. Birinci mərhələ üçün 18,1 hektar torpaq sahəsi ayrılıb və 204 fərdi ev inşa olunacaq. Bu mərhələdə kəndə 204 ailənin köçürülməsi nəzərdə tutulub. Burada da çoxfunksiyalı inzibati bina, Bayraq meydanı, kafe-restoran, mərasim evi, aptek, idman klubu, ailə sağlamlıq mərkəzi, istirahət və yaşıllıq zonaları, klub-icma mərkəzi və kitabxana, ticarət obyekti və qonaq evinin tikintisi planlaşdırılıb. 264 şagird yerlik məktəb, 25 yerlik uşaq bağçası da inşa olunacaq.

Oktyabrın 17-də – Füzuli Şəhəri Günündə şəhərin ilk yaşayış məhəlləsinin sakinləri ilə görüşən dövlət başçısı onlara təbrik və ürək sözlərini çatdırıb: "Necə də gözəl bir gündür. Siz mənə "Xoş gəlmisiniz!" deyirsiniz. Mən işğal dövründə həm füzulililərlə, həm digər rayonlardan olan keçmiş köçkünlərlə görüşlərdə dəfələrlə deyirdim ki, gün gələcək, siz mənə "Xoş gəlmisiniz!" deyəcəksiniz və bu gün gəldi...

Mənim yadımdadır, füzulililərlə və digər rayonlardan olan keçmiş köçkünlərlə çoxsaylı görüşlərimdə, xüsusilə yeni şəhərciklərin açılışı tədbirlərində deyirdim ki, bu, müvəqqəti yaşayış yeridir. Biz çalışırıq və çalışacağıq ki, sizin yaşayış səviyyənizi yaxşılaşdıraq, həyatınızı müəyyən dərəcədə yüngülləşdirək, ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra Füzulidə, Ağdamda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Şuşada daha gözəl evlər tikiləcək, daha gözəl şərait yaradılacaq. Bax, bu gün gəldi, artıq bu, gerçəkdir, bu, reallıqdır...".

Prezident vurğulayıb ki, bu gün Füzulidə, eləcə də yenidən qurulan başqa şəhər və kəndlərimizdə həyata keçirilən layihələr dünya miqyasında şəhərsalma prinsiplərinin yeni qaydalarını təsbit edir və bunu bir çox beynəlxalq ekspertlər də qeyd edir. Dövlət başçısı xatırladıb ki, 2022-ci və 2023-cü illərdə Azərbaycanda iki dəfə – Ağdamda və Zəngilanda Milli Şəhərsalma Forumu keçirilib və bizim bütün layihələrimiz təqdim edilib: "Beynəlxalq təşkilatlar bunu çox yüksək qiymətləndirirlər, çünki, doğrudan da, burada yaşayış üçün ən gözəl şərait yaradılıb, həm binaların daxili quruluşu, həm mənzillərin daxili dizaynı, həm mərtəbəlilik prinsipi, binaların bir-birindən aralı olması, məsafə, hər şey gözlənilib. Yəni, rahat yaşamaq üçün bütün infrastruktur, şərait var. Bizim bütün şəhərlərimiz, bax, Füzuli kimi olacaq. Çünki Füzulidə biz birinci şəhərsalma layihəsini icra edirik...".

# "Sizin dəstəyiniz bizi daha da ruhlandırır"

## TÜRKSOY-un baş katibi Azərbaycan Prezidentinə təbrik məktubu göndərib

"Zati-alinizin rəhbərliyi ilə dövlət müstəqilliyinin bərpasının 32-ci ildönümünün qeyd olunduğu bu il Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmişdir. Bu gün Azərbaycanın üçrəngli Dövlət Bayrağı ölkənin bütün şəhər və rayonlarında qürurla dalğalanır".

Bu sözlər Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un baş katibi Sultan Raevin 18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubunda yer alıb.

Prezident İlham Əliyevi və Azərbaycan xalqını TÜRKSOY-un Baş katibliyi, üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adından təbrik edən Sultan Raevin məktubunda deyilir: "Ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səyləri bu gün onun layiqli davamçısı olaraq Zati-aliniz tərəfindən uğurla davam etdirilir. Sizin müəyyənləşdirdiyiniz uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan siyasi, iqtisadi, sosial və mədəni sahələrdə böyük tərəqqi və inkişafa nail olmuşdur".

Baş katib onu da qeyd edib ki, Azərbaycan Prezidentinin TÜRKSOY-un yaradılmasının 30-cu ildönümü münasibətilə bu günlərdə (15 oktyabr) Bakıda keçirilən təntənəli mərasimə ünvanladığı təbrik məktubu bizi daha da ruhlandırıb və ortaq türk mirasının qorunması, təbliği ilə bağlı gerçəkləşdirəcəyimiz irimiqyaslı layihələrdə Azərbaycanın gələcəkdə də TÜRKSOY-a geniş dəstək verəcəyinə əminliyimizi artırıb.

# Ölkəmiz DTT Baş Assambleyasının sessiyasında təmsil olunur

Azərbaycan nümayəndə heyəti BMT-nin Dünya Turizm Təşkilatı (DTT) Baş Assambleyasının 17-20 oktyabrda Özbəkistanın Səmərqənd şəhərində keçirilən 25-ci sessiyasında iştirak edir.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin rəhbərlik etdiyi nümayəndə heyəti Assambleya çərçivəsində keçirilən Qlobal investisiya və təhsil forumlarında təmsil olunub.

Xatırladaq ki, bu ilin martında DTT-nin Avropa Komissiyasının Bolqarıstanın Sofiya şəhərində keçirilmiş 68-ci iclasında Azərbaycan təşkilatın İcraiyyə Şurasına üzv seçilib. 25-ci Baş Assambleya çərçivəsində ölkəmizə üzvlük səlahiyyətləri verilməsi barədə qərar qüvvəyə minəcək.

Səfər çərçivəsində Fuad Nağıyev Braziliyanın turizm naziri Celso Sabino de Oliveira ilə görüşüb. İki ölkə arasında turizm üzrə əməkdaşlıq üçün media və turizm şirkətləri nümayəndələrinin iştirakı ilə qarşılıqlı tanıtım və təbliğat tədbirləri, eləcə də tanışlıq səfərlərinin təşkili məsələləri müzakirə edilib.

Azərbaycan nümayəndə heyətinin 20 oktyabrda Səmərqənddə keçiriləcək DTT İcraiyyə Şurasının 120-ci sessiyasında da iştirakı nəzərdə tutulur.

# Gənc ifaçılar beynəlxalq müsabiqədə uğur qazanıblar

Litvanın paytaxtı Vilnüsdə V Beynəlxalq "World Harmony" gənc ifaçıların müsabiqəsi keçirilib. Müsabiqədə ölkəmiz də təmsil olunub.



Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) 4-cü kurs tələbəsi Nəriman Məsimov (fortepiano) və Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin şagirdi Əli Vəliyev müsabiqənin ən yüksək mükafatına – Qran-priyə layiq görülüblər.

Fortepiano ifaçılığı üzrə BMA-nın 4-cü kurs tələbəsi İlqarə Talıbova I yeri, 2-ci kurs tələbələri Fidan Muxtarova və Nurel Kərimova II yeri, 4-cü kurs tələbəsi Fatimə Hacızadə isə III yeri qazanıblar.

Qeyd edək ki, BMA-nın prorektoru Əməkdar müəllim, professor Nərminə Quliyeva müsabiqənin münsiflər heyətində təmsil olunub. Müsabiqənin qala-konsertində N.Quliyevanın tələbəsi Nəriman Məsimov Tofiq Quliyevin "Qaytağı" əsərini yüksək peşəkarlıqla ifa edib.

# Azərbaycan qadınlarının qurultayı keçirilib

Oktyabrın 19-da "Gülüstan" Sarayında Azərbaycan Qadınlarının VI Qurultayı keçirilib. Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş qurultayda 600-ə yaxın nümayəndə iştirak edib.



Tədbirin əvvəlində Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva dövlət başçısı İlham Əliyevin qurultay iştirakçılarına müraciətini oxuyub.

Müraciətdə qeyd edilir ki, qurultayın Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması dərin məna daşıyır. Azərbaycan qadınlarının 25 il əvvəl Ulu öndərin təşəbbüsü ilə keçirilən ilk qurultayı ölkəmizdə qadın hərəkatının keyfiyyətcə yeni mərhələsini başladıb: "Ötən müddətdə cəmiyyətdəki mövqeləri daha da möhkəmlənən qadınlarımız respublikanın sosial-iqtisadi və mədəni-elmi potensialının gücləndirilməsi işinə dəyərli töhfələr bəxş etmişlər. Onların təqdirəlayiq ictimai nüfuzu təməl prinsipləri Heydər Əliyev tərəfindən müəyyən edilmiş dövlət qadın siyasətinin ardıcıl gerçəkləşdirilməsinin nəticəsidir".

Müraciətdə vurğulanır ki, qloballaşmanın vüsət aldığı və milli özünəməxsusluğu sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda mədəni-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və yaşadılmasında Azərbaycan qadınlarının xidmətləri misilsizdir: "Onlar eyni zamanda maarifpərvər sələflərinin ənənələrini müvəffəqiyyətlə davam etdirərək, artan təşəbbüskarlıqları və dolğun sosial-mədəni fəaliyyətləri ilə ictimai həyatımıza yeni güc qatır, müstəqillik salnaməmizə parlaq səhifələr yazırlar. Hər bir nailiyyətimizdə qadınların böyük zəhməti vardır. Fədakar analarımızın Vətən sevgisinin bariz nümunəsi dövlətimizin suverenliyi və ərazi bütövlüyünün bərpası naminə döyüş meydanındakı unudulmaz rəşadəti ilə xalqımızın mübarizlik ruhunu nümayiş etdirən milli əqidəli gənc nəsildir".

Qurultayda çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, son 20 ildə iş dünyasında qadınların rolu artıb.

Baş nazirin müavini Əli Əhmədov qeyd edib ki, Azərbaycan hökuməti bundan sonra da cəmiyyətdə qadınların imkanlarının genişləndirilməsi və onlara şərait yaradılması istiqamətində atılan addımları davam etdirəcək.

Türkiyə ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaş Azərbaycanın tarixi Qarabağ Zəfəri münasibətilə tədbir iştirakçılarını təbrik edib. O, qadın haqlarından danışıb, Türkiyənin bu istiqamətdə atdığı addımlardan söz açıb.

Daha sonra BMT-nin rezident əlaqələndiricisi Vladanka Andreeva, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili – ombudsman Səbinə Əliyeva və digər şəxslər çıxış ediblər.

Qurultay panel müzakirələrlə başa çatıb.

# Qarabağı birlikdə bərpa edək

## Bakıda 3-cü "Rebuild Karabakh" sərgisi keçirilir



Qarabağda və Şərqi Zəngəzurda uğurla icra edilən quruculuq-bərpa və reinteqrasiya işləri dövlət və özəl sektor arasında faydalı əməkdaşlıq və inkişaf nümunəsinə çevrilir.

Bu fikirlər Prezident İlham Əliyevin oktyabrın 19-da Bakıda açılan 3-cü Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" – "Rebuild Karabakh" Sərgisinin iştirakçılarına müraciətində qeyd olunub.

"Sərgi iştirakçılarını – qabaqcıl iş adamlarını işğaldan azad edilmiş doğma torpaqların bərpası və inkişafı üçün dövlətimiz tərəfindən yaradılmış imkanlardan faydalanmağa, habelə biznes ideyalarını vahid məqsəd ətrafında birləşdirməyə dəvət edirəm. Əminəm ki, "Rebuild Karabakh" Sərgisi Qarabağda və Şərqi Zəngəzurda faydalı təşəbbüslərin uğurla gerçəkləşməsi və yeni işgüzar əlaqələr qurulması baxımından əlverişli platforma olacaqdır", – deyə müraciətdə bildirilir.

Oktyabrın 19-da Bakı Ekspo Mərkəzində keçirilən "Rebuild Karabakh" Azərbaycanın işğaldan azad olunmuş torpaqlarının bərpasına həsr edilmiş ixtisaslaşmış sərgidir. İlk dəfə 2021-ci ildə keçirilən sərginin məqsədi Qarabağda bərpa və yenidənqurma işlərinə diqqəti çəkmək, biznesin bu ərazilərin inkişafında və infrastrukturun bərpasında iştirakını, buraya investisiya qoyuluşunu təşviq etməkdir.

Xəzər İnşaat Həftəsi çərçivəsində keçirilən "Rebuild Karabakh"la yanaşı, Bakı Ekspo Mərkəzində 28-ci Azərbaycan Beynəlxalq İnşaat ("BakuBuild"), 15-ci Yubiley Beynəlxalq İstilik, Havalandırma, Kondisionerləşdirilmə, Su təchizatı, Santexnika və Üzgüçülük Hovuzu ("Aquatherm Baku") və 11-ci Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat ("Road&Traffic") sərgiləri də keçirilir. Sərgilər oktyabrın 21-dək davam edəcək.

### "2025-ci ildə Ağdam şəhəri və ətraf kəndlərə sakinləri köçürə bilərik"

Ağdam şəhərində görüləcək işlərin miqyası daha çoxdur. Bu gün orada genişmiqyaslı tikinti işləri gedir.

Bunu "Rebuild Karabakh" sərgisində iştirak edən Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov bildirib.

O qeyd edib ki, Ağdam şəhərində artıq 3 məhəllənin təməli qoyulub. İki məhəllədə işlərə başlanılıb: "Daha 3 məhəllənin yaxın zamanda təməli qoyulacaq. Gələn ilin əvvəlində bütün bu tikinti işlərinə başlanılacaq. 2025-ci ilin ortalarından başlayaraq Ağdam şəhərinə və onun ətraf kəndlərinə, Xıdırlı, Kəngərli, Sarıcalıya məskunlaşmanı həyata keçirə bilərik. Bunun ardınca digər kəndlər də gələcək, Arazxanbəyli, Salahlı, Güllücə, bütün bu kəndlərin hamısı "Böyük Qayıdış" I Dövlət Proqramında qoyulmuş vaxta uyğun olaraq tikilib təhvil veriləcək", – deyə Emin Hüseynov bildirib.

Prezidentin xüsusi nümayəndəsinin sözlərinə görə, 2026-cı ilə qədər Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə ümumilikdə 34500 ailənin – 140 min keçmiş məcburi köçkünün məskunlaşması nəzərdə tutulur.

Xatırladaq ki, Ağdamın Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin təməlqoyma mərasimi 2022-ci il oktyabrın 4-də qoyulub.

# İstiqlal Muzeyində qazilərlə görüş

Azərbaycan İstiqlal Muzeyinin "Qəhrəmanlar can verir, yurdu yaşatmaq üçün" layihəsi çərçivəsində qazilərlə görüş keçirilib.



18 Oktyabr – Müstəqilliyin Bərpası Gününə həsr olunmuş tədbirdə bu günün tarixi əhəmiyyətindən danışılıb. Bildirilib ki, 1991-ci ildə Azərbaycan xalqı XX əsrdə ikinci dəfə öz dövlətçiliyinin varlığını dünyaya bəyan edib.

Tədbir iştirakçıları İstiqlal Muzeyinin ekspozisiyası ilə tanış olublar.

Qazilər xalq-dövlət-ordu birliyinin təcəssümü olan, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Silahlı Qüvvələrimizin şücaəti ilə əldə edilən tarixi Zəfərdən söz açıblar.

Bülbül adına Orta İxtisas Musiqi Məktəbi şagirdlərinin və Xalq artisti Munis Şərifovun rəhbərlik etdiyi Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin Qədim musiqi alətləri ansamblı üzvlərinin iştirakı ilə konsert proqramı keçirilib.

Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Bakı Reabilitasiya Mərkəzində müalicə alan qazilər, Xətai rayonu 7 nömrəli tam orta məktəbin şagirdləri və "İRƏLİ" İctimai Birliyinin könüllüləri iştirak ediblər.

# Vətən, torpaq, bayraq uğrunda əbədiləşən "Oğul"

## Sənədli filmin nümayişi keçirilib

*əvvəli səh. 1-də*

Filmin prodüseri Ekard Seycer (Eckart Sager) ekran əsərinin ərsəyə gəlməsi prosesindən danışıb. O, film çəkildiyi dövrdə, hadisələrdən 25 il keçməsinə baxmayaraq, Natiq Qasımovun aqibəti haqqında məlumatların olmadığını diqqətə çatdırıb, məhz bu səbəbdən onun başına nələrin gəldiyini araşdırmaq üçün yola çıxdığını deyib. Natiq Qasımovun ermənilər tərəfindən ələ keçirilməsi və sorğu-sual olunması səhnələrindən təsirləndiyini qeyd edib: "Azərbaycan və Ermənistan arasındakı münasibətləri nəzərə alaraq, bu məsələyə obyektiv və təmkinlə yanaşmaq bizim üçün çox vacib idi. Bu faciəvi hadisə Qarabağ müharibəsinin təcəssümüdür".

Natiq Qasımovun qardaşı Nofəl Qasımov isə jurnalistlərə müsahibəsində qeyd edib ki, "Oğul" sənədli filminin çəkilişinə başlanılanadək onun taleyi barədə heç bir məlumat yox idi: "Sadəcə, onun əsir götürülməsi haqqında məlumatımız var idi. Sonradan bildik ki, Natiq ermənilərlə təkbaşına döyüşüb. Daha sonra isə Xocalıda girov götürülən sakinlərin öldürülməməsi üçün təslim olmağa razılaşıb".

Natiq Səlim oğlu Qasımov 1971-ci ildə Gədəbəy rayonunun Kiçik Qaramuradlı kəndində anadan olub. Birinci Qarabağ müharibəsi zamanı "Qarabağ şahinləri" batalyonunun tərkibində Ağdam-Xankəndi istiqamətində döyüşlərdə igidlik göstərib.




Hərbi əməliyyatlar zamanı altı döyüş yoldaşını itirdikdən sonra beş gün ərzində alban kilsəsində mühasirədə qalır, ermənilərə müqavimət göstərərək təslim olmur. Ermənilər Xocalıda girov götürülən 22 sakini öldürəcəkləri ilə təhdid etdikdən sonra cəsur döyüşçümüz təslim olmağına razılaşır.

Ermənilər Natiqin bir neçə gün təkbaşına vuruşmasına heç cür inana bilmirdilər. Konstantin Smirnov adlı müxbirin





"Oqonyok" jurnalının 1992-ci ilin aprel sayında (№ 14-15) dərc olunmuş "Qorxu" ("Strax") sərlövhəli məqaləsində hətta təslim olduqda belə Azərbaycan bayrağını düşmənə verməyən Natiq Qasımovun şücaətindən bəhs edilirdi. Həmin məqalədə əlində Azərbaycan bayrağını fəxrlə saxlayan Natiq Qasımovun Ermənistan hərbçilərinin əhatəsindəki fotosu da yer almışdı.

Azərbaycan tarixinin daha bir qəhrəmanlıq səhifəsindən bəhs edən bu sənədli film rejissor və ssenari müəllifi Karan Sinqh tərəfindən italiyalı hərbi fotoreportyor Enriko Sarsininin dərc olunmamış fotoları əsasında ekranlaşdırılıb. Enriko Sarsininin Qarabağda baş verənlərlə bağlı danışdığı olduqca kədərli, lakin qürur dolu hekayəni dünyaya tanıtmaq qərarına gələn rejissor həmin hadisəni və qəhrəmanın aqibətini aydınlaşdırmaq üçün üç il Azərbaycan, Ermənistan, İtaliya, Böyük Britaniya və Rusiyada şahidlərlə görüşüb, onların müsahibələrini lentə alıb.

Filmdə Natiq Qasımovun erməni əsirliyində dindirilməsi ilə bağlı məqamlar və bu dindirilmələrdə ermənilərin səhra komandiri Vitali Balasanyanın da iştirak etməsinə dair faktlar yer alır. Şahidlərin məlumatına görə, erməni hərbçi Vitali Balasanyan Natiq Qasımovu əsirlikdə olduğu müddətdə işgəncə ilə qətlə yetirib.

Film riyakar erməni xislətini bir daha aşkara çıxarmış olur. Bununla yanaşı, filmin rejissoru ekran əsərində müharibələrin insanların taleyində oynadığı dəhşətli roldan bəhs edir, ailələrin öz əzizlərinin itkisindən və naməlum taleyindən çəkdikləri iztirabları ön plana gətirir.

Xatırladaq ki, 2022-ci il fevralın 28-də Nizami Kino Mərkəzində premyerası olan film Azərbaycan və ingilis dillərində hazırlanıb. Film iki dəfə ABŞ-də nümayiş etdirilib.

Natiq Qasımovun şücaətini əks etdirilən "Oğul" sənədli filmi Azərbaycan Ordusunun 2023-cü ilin sentyabr ayında apardığı uğurlu antiterror tədbirlərindən sonra yenidən ictimaiyyətin gündəminə gəlib.

Tədbir zamanı "TEAS Press"in kitablarının satışı da reallaşdırılıb və əldə olunan gəlir "YAŞAT" Fondu və Qarabağ Dirçəliş Fondunun hesablarına köçürüləcək.

# Akademik Musiqili Teatrda "Leyli və Məcnun"a ictimai baxış

Akademik Musiqili Teatrda səhnələşdirilən "Leyli və Məcnun" tamaşasına oktyabrın 18-də ictimai baxış keçirilib. Səhnə əsəri Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" muğam operasının və Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının motivləri əsasında rejissor Samir Qulamovun librettosu və quruluşunda hazırlanıb.



Tamaşanın bədii rəhbəri Akademik Musiqili Teatrın direktoru Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu rəssamı Vüsal Rəhim, xormeysteri Əməkdar artist Vaqif Məstanov, muğam ifası üzrə məsləhətçisi Xalq artisti Səkinə İsmayılova, solo tar ifaçıları Əməkdar artist Elxan Mansurov, gənc tarzənlər Səxavət Məmmədov, Cahid Əlizadə, konsertmeysteri Fidan Əliyeva, rejissor assistentləri Prezident mükafatçısı Əmrah Dadaşov və Sevinc Məmmədovadır.

Leyli rolunda VII Muğam Televiziya Müsabiqəsinin qalibi İlahə Rüstəmova, Məcnun rolunda respublika və beynəlxalq muğam müsabiqələrinin qalibi Orxan Hüseynli çıxış edir. Quruluşçu baletmeyster Əməkdar artist Emin Əliyev həm də Məcnunun ruhu obrazını canlandırır. Leylinin ruhu obrazının ifaçısı teatrın balet artisti İranə Kərimovadır.

Tamaşada Əməkdar artist Nadir Xasiyev, Prezident mükafatçıları Səmədzadə Xasiyev, Əmrah Dadaşov, artistlər Gülnarə Abdullayeva, Təranə Əliyeva, Bacıxanım Sadıqova, İbrahim Əlizadə, Emin Zeynallı, Əli Kərimov, Murad Əliyev, Böyükxanım Məmmədova, Mirzəhra Muradova, Aydan Əliyeva, teatrın xor və balet heyətinin üzvləri iştirak edirlər.

# "Prodüserlərin yüksəlişi" proqramının birinci mərhələsi tamamlanıb



*əvvəli səh. 1-də*

Təlimin birinci mərhələsini 30 nəfər müvəffəqiyyətlə bitirib. İştirakçılar xarici mentorlarla təmas qurmaqla yeni layihələr üzərində işlərini 7 həftə davam etdirəcəklər.

Layihənin rəhbəri Martin Hagemann təlimin iştirakçıları arasında təcrübəli və kino sahəsində ilk addımlarını atan şəxslər olduğunu vurğulayıb, belə təlimlərin gələcəkdə daha səmərəli layihələrin ərsəyə gəlməsinə xidmət edəcəyinə inandığını bildirib.

Qeyd edək ki, təlim proqramının yekununda yerli və xarici mütəxəssislər tərəfindən seçiləcək layihələrə Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyi tərəfindən xüsusi mükafatların verilməsi nəzərdə tutulur.

# Müstəqilliyimiz tarixi sərvətimizdir!

## Mədəniyyət ocaqlarında tədbirlər





Oktyabrın 18-də F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 3 saylı filialı və Binəqədi rayon 143 saylı tam orta məktəbin birgə təşkilatçılığı ilə "Müstəqilliyimiz əbədidir, dönməzdir!" adlı tədbir keçirilib.

Məktəbin müəllimi Azadə Yusifova bildirib ki, 18 oktyabr 1991-ci ildə Azərbaycan Parlamenti – Ali Sovet "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul edib. "Müstəqillik Günü" haqqında Azərbaycan Respublikasının Qanununa (15 oktyabr 2021-ci il) əsasən, 18 oktyabr Müstəqilliyin Bərpası Günü elan edilib.

Müstəqilliyimizin tarixi haqqında videoçarx nümayiş olunub.

Şagirdlər vətənsevərlik ruhunda şeirlər söyləyiblər. Sonda tədbir iştirakçıları mövzu ilə bağlı kitab sərgisinə baxıblar.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Heydər Əliyev Mərkəzində Müstəqilliyin Bərpası Gününə həsr olunmuş "Müasir, müstəqil və qalib Azərbaycan" adlı tədbir keçirilib.

Çıxış edənlər Müstəqilliyin Bərpası Gününün tarixindən və Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsi ilə dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsindən danışıb. Bildirilib ki, Azərbaycanın bugünkü uğurlarının təməlində Heydər Əliyevin siyasi xətti dayanır. 44 günlük Vətən müharibəsi zamanı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Ordumuzun Qələbəsi müstəqil respublikamızın tarixinə yazılan ən parlaq səhifələrdəndir.

Sonda "Azərbaycançılıq ideologiyasının formalaşmasında Heydər Əliyevin rolu" adlı məruzə dinlənilib.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Xətai rayon MKS-nin Mərkəzi Kitabxanasında da əlamətdar günlə bağlı "Müstəqilliyimiz tarixi sərvətimizdir!" adlı tədbir keçirilib.

Çıxış edənlər dövlət müstəqilliyimizin əhəmiyyətindən, Azərbaycanın siyasi, iqtisadi və mədəni sahələrdə qazandığı nailiyyətlərdən söz açıblar.

Sonda mövzu ilə əlaqədar hazırlanmış sərgiyə baxış keçirilib.

# Mədəniyyət evində tanınmış xanəndə ilə görüş

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Aşıq Rza Qobustanlı adına Mədəniyyət evində Əməkdar incəsənət xadimi, tanınmış xanəndə və şair Hacı Aqil Məlikov ilə görüş keçirilib.



Çıxış edənlər sənətkarın həyat və yaradıcılığından, musiqi mədəniyyətimizin inkişafındakı xidmətlərindən söz açıblar. Bildirilib ki, xanəndə Azərbaycan muğam ifaçılığı sənətində iz qoyan parlaq sənətkarlardan biridir.

Sonra xanəndənin ifasında muğam və təsniflər dinlənilib. Sənətkar tamaşaçıların suallarını cavablandırıb.

# Filarmoniya səhnəsində konsertlər



Oktyabrın 17-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində "Simurq" layihəsi çərçivəsində konsert təşkil olunub.

Filarmoniyadan bildirilib ki, konsertdə Cavad Tağızadənin dirijorluq etdiyi Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrinin (bədii rəhbər Xalq artisti Fəxrəddin Kərimov) müşayiəti ilə solistlər – violin ifaçıları Evgeniya Epşteyn (İsrail-Xorvatiya), Surə Rüfət, Zeyn Cəfərov, Özcan Cabbari, Osman Mustafazadə, Kənan Məmmədzadə, Qədir Günəşov, Xədicə Gözəlova, Nəzrin Hüseynova, Aydan Hacıəhmədova, Fəridə Abbaszadə, Yulia Motorina və Renata Abubəkirova çıxış ediblər.

Proqramda rus və Avropa bəstəkarlarının əsərləri səslənib.

Müəllifi tanınmış pianoçu, beynəlxalq müsabiqələr laureatı Səidə Tağızadə olan layihənin məqsədi gənc, istedadlı musiqiçiləri önə çıxarmaq və onlara dəstək olmaqdır.

***

Oktyabrın 18-də isə Azərbaycan Dövlət Akademik Filarmoniyasında bəstəkar və pianoçu Lalə Əhmədovanın "Vətənim Azərbaycandır" adlı solo konserti keçirilib.

Azərbaycan Milli Konservatoriyası nəzdində Sumqayıt Musiqi Kollecinin "Vio Cello" kamera orkestrinin (dirijor Firəngiz Xəlilova, bədii rəhbərlər Könül Bəkirova və Şəms Əliyeva) müşayiəti ilə solistlər – respublika və beynəlxalq müsabiqələr laureatları Səbinə Mehdiyeva (piano), Taleh Rəsulov (tenor), Ruslan Əliyev (tar), Kamran Teymurov (tar), Tural Qədirov (kamança) və Çinarə Mahmudova (vokal) öz ifalarını təqdim ediblər. Proqramda Lalə Əhmədovanın əsərləri səslənib.



# Amerikalı pianoçunun ustad dərsi

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin C.Hacıyev adına 3 nömrəli onbirillik Musiqi məktəbində ABŞ-də yaşayan tanınmış pianoçu Tatyana Yudeniç tərəfindən müəllimlər üçün ustad dərsi keçirilib.



Ustad dərsi amerikalı pianoçu Stanislav Yudeniçin rəhbərlik etdiyi "Dünya konsertləri turnesi" beynəlxalq layihəsi çərçivəsində gerçəkləşib. Layihənin ölkəmizdə reallaşmasına Diasporla İş üzrə Dövlət Komitəsi dəstək olub.

Ustad dərsində baş idarənin tabeliyində fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinin fortepiano ixtisası üzrə müəllimləri iştirak ediblər. Dərs zamanı T.Yudeniç şagirdlərin ifasını dinləyib və onlara öz tövsiyələrini verib.

Qeyd edək ki, ustad dərslərinin keçirilməsində məqsəd tədrisin keyfiyyətinin yüksəldilməsinə, fortepiano müəllimlərinin bilik, bacarıq və peşə səriştələrinin artırılmasına, şagirdlərin bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsinə nail olmaqdır.

Xatırladaq ki, "Dünya konsertləri turnesi" beynəlxalq layihəsi üzrə 10-14 oktyabr tarixlərində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında görkəmli rus bəstəkar Sergey Raxmaninovun 150 illiyinə həsr olunmuş silsilə konsertlər keçirilib.

# Tarix yazan əbədiyaşar lider

## Bölgələrdə "Heydər Əliyev İli" tədbirləri davam edir

Füzuli rayonunun Horadiz şəhərindəki Muğam Mərkəzində Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan "Rənglərin sehrində" adlı rəsm sərgisi təşkil edilib.



Füzuli Rayon İcra Hakimiyyəti və rayon Mədəniyyət evinin birgə təşkilatçılığı ilə keçirilən sərgidə rayon mədəniyyət müəssisələri dərnək üzvlərinin 50-dən çox peyzaj, portret janrında, eləcə də naturadan çəkilmiş əl işləri nümayiş olunub.

***

Salyan rayon Mədəniyyət Mərkəzi və YAP Salyan rayon təşkilatının birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" mövzusunda tədbir keçirilib. Çıxış edənlər Ulu öndər Heydər Əliyevin mədəniyyətimizin bütün sahələrinin inkişafına diqqət və qayğısından bəhs ediblər.

Əməkdar artist Həsənağa Sadıqov adına "Mahirlər" ailə xalq ansamblı tərəfindən instrumental musiqi nömrələri təqdim olunub.

***



Göyçay rayon Heydər Əliyev Mərkəzində "Tarix yazan əbədiyaşar lider" mövzusunda dəyirmi masa təşkil edilib. Bildirilib ki, Heydər Əliyev yolu çoxəsrlik tarixə əsaslanan milli dövlətçiliyimizin və müstəqilliyimizin inkişaf salnaməsidir. Sonda Ümummilli liderin həyat və siyasi fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

***

Gədəbəy rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev və Azərbaycanda uşaq hüquqları" mövzusunda maarifləndirici tədbir keçirilib. Ümummilli lider Heydər Əliyevin uşaq hüquqları ilə bağlı siyasəti, qəbul edilmiş qanunlar və uşaq hüquqları haqqında beynəlxalq konvensiyalar barədə ətraflı məlumat verilib.

***

Yardımlı rayon Heydər Əliyev Mərkəzində "Gəncliyin himayədarı" adlı tədbir təşkil olunub. Çıxışlarda Ulu öndərin gənclərimizə göstərdiyi diqqət və qayğıdan, bu istiqamətdə aparılan siyasətin uğurlu nəticələrindən, həmçinin mərkəzin "Heydər Əliyev İli" çərçivəsində həyata keçirdiyi layihə və tədbirlərdən söz açılıb.

# Naxçıvan teatrı İstanbulda festivalda təmsil olunub

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrının direktoru Xalq artisti Rza Xudiyev və aktyor, Prezident mükafatçısı Nəsimi Məmmədzadə 11-15 oktyabr tarixlərində İstanbulda Avrasiya Teatrlar Birliyi (ATB) tərəfindən keçirilən V Maltepe Beynəlxalq Teatr Festivalında iştirak ediblər.



Nəsimi Məmmədzadə ATB-nin Naxçıvan Muxtar Respublikası üzrə təmsilçisi, Naxçıvan teatrı isə adıçəkilən birliyə üzv seçilib. Qeyd edək ki, festivalda Azərbaycan, Şimali Kipr, Gürcüstan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Portuqaliya, Ukrayna – ümumilikdə 28 ölkədən 200-ə yaxın teatr xadimi iştirak edib.

# Lənkəran teatrından yeniliklər

Mövsümün açılışından bu yana üç premyera ("The müqəssir", "Bu da axırı" (mono-tamaşa) və "Cəmilə") ilə sənətsevərlərin görüşünə gələn Lənkəran Dövlət Dram Teatrında yeni tamaşalar üzərində yaradıcılıq işi gedir.



"Heydər Əliyev İli" çərçivəsində hazırlanan "İki iyirmi üç arasında" tamaşasının müəllifi Qaşəm Nəcəfzadə, quruluşçu rejissoru Emil Əsgərovdur. Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən tamaşanın noyabr ayında təhvil verilməsi nəzərdə tutulur.

Emil Əsgərovun quruluş verdiyi ikinci səhnə işi Təranə Vahidin "Mən toz dənəsiyəm" hekayəsi əsasında hazırlanan mono-tamaşadır. Aktyorların fərdi yaradıcılığına önəm verən teatr rəhbərliyi mono-tamaşaların hazırlanmasına xüsusi diqqət ayırır. "Mən toz dənəsiyəm" tamaşasında Prezident mükafatçısı Aynur Əhmədova çıxış edəcək.

Vilyam Şekspirin ən məşhur əsərlərindən olan "Kral Lir" pyesi də teatrın builki planına daxildir. Əsər E.Əsgərovun quruluşunda Lənkəran səhnəsinə çıxacaq.

İlin sonuna qədər təhvil verilməsi nəzərdə tutulan digər əsər Cavid Zeynallının "Tanrı quşu gəlmədi" pyesidir. Bu tamaşa teatrın baş rejissoru Anar Babalı tərəfindən hazırlanacaq.

Lənkəran Dövlət Dram Teatrı bu mövsümdə də balaca tamaşaçılarını unutmayıb. Şəfahət Şəfinin "Arı pətəyi" pyesi əsasında hazırlanan tamaşa (rejissor E.Əsgərov) onlar üçün nəzərdə tutulub.

# "Müstəqilliyimiz əbədidir!"

18 Oktyabr – Müstəqilliyin Bərpası Günü münasibətilə bölgələrdəki mədəniyyət müəssisələrində müxtəlif tədbirlər keçirilib.





Şirvan şəhər Heydər Əliyev Mərkəzi, şəhər Mədəniyyət Mərkəzi, Folklor evi və Salyan rayon Mədəniyyət Mərkəzinin Yenikənd kənd Folklor evində təşkil olunan tədbirlərdə ədəbi-bədii kompozisiyalar, musiqi nömrələri təqdim olunub.

Salyan rayon Heydər Əliyev Mərkəzi və Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin Salyan rayonu üzrə sektorunun təşkilatçılığı ilə əlamətdar gün münasibətilə gənclər arasında "Xəmsə" milli intellektual oyunu keçirilib. Qalib komandalar diploma təltif olunub.

***





Laçın Dövlət Rəsm Qalereyası və rayon Gənclər və İdman sektorunun birgə təşkilatçılığı ilə Müstəqilliyin Bərpası Günü ilə əlaqədar tədbir keçirilib. Bakı şəhər Qaradağ rayonu "Qobu park" yaşayış kompleksindəki Laçın rayon 29 nömrəli klubunda (müvəqqəti olaraq Şirvan şəhərində yerləşir) da əlamətdar gün qeyd olunub. Tədbirdə Zəngilan rayon 3 saylı tam orta məktəbin şagirdləri tərəfindən şeirlər və kompozisiyalar təqdim olunub.

***

Cəbrayıl rayon Mədəniyyət Mərkəzinin Daş Veysəlli kənd tam orta məktəbdə gerçəkləşən tədbirdə uşaq və gənclərin əl işlərindən ibarət sərgi nümayiş etdirilib.

Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzində elmi-praktik konfrans keçirilib. Tədbirdə "Müstəqilliyimiz əbədidir!" adlı film nümayiş olunub. Çıxışlarda Azərbaycanın dövlət müstəqilliyinin xalqımızın tarixi nailiyyəti olduğu vurğulanıb. Qeyd olunub ki, XX əsrin sonlarında beynəlxalq aləmdə və Sovet İttifaqında yaranan vəziyyət xalqımıza qəlbində yaşatdığı müstəqillik arzularını yenidən reallaşdırmaq imkanı verib.

***

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının oxu zalında "Müstəqilliyimiz əbədidir!" adlı tədbir keçirilib. Çıxış edənlər Azərbaycanın dövlətçilik tarixi, müstəqillik yolunun xronikası və Zəfər Günü, həmçinin işğaldan azad edilmiş yurd yerlərimizdə aparılan hazırkı quruculuq işləri haqqında məlumat veriblər. Sonda "Əbədi və sarsılmaz müstəqillik" adlı videoçarx nümayiş etdirilib, "18 Oktyabr Müstəqilliyin Bərpası Günüdür" adlı sərgiyə baxış olub.

***

Ağstafa şəhər 1 saylı Folklor klubunda təşkil olunan tədbirdə qeyd olunub ki, dövlət müstəqilliyinin əldə edilməsi xalqımızın ən böyük nailiyyətlərindən biridir. Ötən əsrin 90-cı illərində müstəqilliyimizin qorunub möhkəmləndirilməsi Ümummilli lider Heydər Əliyevin tarixi xidmətidir.

# Vətən sizə oğul deyir...



Lənkəran-Astara RMİ-nin rəisi Bəxtiyar Qılıncov və mədəniyyət işçiləri şəhid ailələrini ziyarət ediblər. Görüşdə şəhid ailələrinə, qazilərə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan bəhs edilib, şəhidlərin əziz xatirəsinin qəlblərdə daim yaşayacağı diqqətə çatdırılıb. Şəhid ailələrinə ərzaq sovqatları təqdim edilib.

***

Zaqatala rayonunun Lahıc kəndində Vətən Müharibəsi Qəhrəmanı, şəhid kapitan İsmayıl Səmədovun anım günü ilə bağlı tədbir keçirilib. İ.Səmədovun keçdiyi döyüş yolundan söz açılıb, şəhidlərin əziz xatirəsinin heç bir zaman unudulmayacağı vurğulanıb. Məktəblilər şəhidlərə, Vətənə həsr olunmuş şeirlər söyləyiblər.

İsmayıl Səmədov 1990-cı il avqustun 9-da Zaqatala rayonunun Lahıc kəndində anadan olub. Vətən müharibəsi zamanı Cəbrayılın, Füzulinin azad olunması uğrunda döyüşlərdə iştirak edib. Oktyabrın 11-də Füzuli döyüşləri zamanı şəhid olub, doğulduğu Lahıc kəndində torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamı ilə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. O, həmçinin "Vətən uğrunda", Cəbrayıl, Xocavənd və Füzulinin azad olunmasına görə medallarla təltif edilib.

***

Şirvan şəhərində Vətən müharibəsi şəhidi Elvin Şıxəliyevin xatirəsi yad olunub. Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov şəhidin valideynlərinə belə vətənpərvər, mərd, şücaətli oğul böyütdükləri üçün minnətdarlığını bildirib.

Qeyd edilib ki, Elvin Şıxəliyev 1995-ci il iyunun 6-da Şirvan şəhərində dünyaya göz açıb. Vətən müharibəsi başlayan gündən ön sıralarda yer alıb. Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak edib, 2020-ci il oktyabrın 14-də şəhidlik zirvəsinə ucalıb. Şirvan şəhər Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzuli, Cəbrayıl və Xocavəndin azad olunmasına görə medalları ilə təltif olunub.

***



Gəncə şəhər Heydər Əliyev Mərkəzi və şəhər MKS-nin 16 nömrəli kitabxana filialının birgə təşkilatçılığı ilə Vətən müharibəsinin şəhid çavuşu Fariz Həsənovun anım günü ilə əlaqədar qəhrəmanın həyat yoldaşı Əzizə Farizin "Sevən qəlbin fəryadı" kitabının təqdimatı keçirilib. Çıxış edənlər şəhidin həyatı və döyüş yolu haqqında məlumat veriblər.

Fariz Həsənov 1987-ci il fevralın 12-də Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub. Vətən müharibəsi zamanı oktyabrın 13-də Füzulinin azad edilməsi zamanı şəhadətə yüksəlib. Ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Sonda müəllif kitabı tədbir iştirakçıları üçün imzalayıb.

***



N.Nərimanov adına Sumqayıt şəhər Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə 2016-cı ilin Aprel döyüşlərində şəhidlik zirvəsinə ucalan Əbdülməcid Axundov anadan olmasının 30 illiyinə həsr olunan "Nur üzlü cənnət mələyi" adlı tədbir keçirilib. Tədbirdə Abşeron-Xızı RMİ-nin rəisi Fərid Qurbanzadə, şəhidin anası Ceyran Həsənova və mədəniyyət işçiləri iştirak ediblər.

Şəhidin anası oğlu haqqında xatirələrini bölüşüb, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Sonda "Missiya" tamaşasından bir səhnə nümayiş etdirilib.

Əbdülməcid Axundov 1993-cü il oktyabrın 15-də Sumqayıt şəhərində anadan olub. Aprel döyüşləri zamanı şəhid olub. Ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medal ilə təltif edilib.

**Hazırladı: N.Məmmədli**

# Qusarda "Böyük ömrün dastanı"

Oktyabrın 18-də Qusar Dövlət Ləzgi Dram Teatrında Xalq şairi Zəlimxan Yaqubun "Böyük ömrün dastanı" poeması əsasında hazırlanan eyniadlı tamaşa-kompozisiyanın premyerası olub.



Səhnə işi Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə hazırlanıb. Quruluşçu rejissoru və musiqi tərtibatçısı Əməkdar mədəniyyət işçisi Faiq Qardaşovdur. Rayon ictimaiyyəti qarşısında nümayiş olunan tamaşa-kompozisiya maraqla qarşılanıb.

# Mingəçevir səhnəsində "Zamanın rüzgarı" əsir

Mingəçevir Dövlət Dram Teatrı daha bir premyeraya hazırlaşır. "Zamanın ruzigarı" adlı səhnə işi sosial-mənəvi problemlər fonunda insanların parçalanmış hiss və münasibətlərindən bəhs edir.

Oktyabrın 23-də təqdim olunacaq tamaşa yazıçı-publisist Xeyrəddin Qocanın eyniadlı əsəri əsasında teatrın baş rejissoru Vüsal Mehrəliyev tərəfindən səhnələşdirilib. Quruluşçu rəssam Pakizə Adilbəyli, musiqi tərtibatçısı Elnur Rəsulovdur.

Böyük ədiblərimizin yaşadığı dövrə sənət səyahəti olan tamaşada rolları Aydın Quliyev (C.Məmmədquluzadə), Vüsalə Quliyeva (H.Məmmədquluzadə), Paşa Salmanov (M.Ə.Sabir), Şıxı Yaqubov (Ə.Haqverdiyev), Hüseyn Mustafa (Kefli İsgəndər) və b. ifa edirlər.

# Şükürbəyli-Cəbrayıl-Hadrut yolunun tikintisi yekunlaşır

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan infrastruktur layihələrindən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolunun tikinti işləri yekunlaşmaq üzrədir.



Başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistralının Şükürbəyli kəndindən (Cəbrayıl rayonu) keçən hissəsindən götürməklə Xocavənd rayonunun Hadrut qəsəbəsinədək çəkilən yolun uzunluğu 39.7 km-dir. 4 hərəkət zolaqlı yolun 2, 19, 20, 27, 31 və 39-cu km-lərində 6 avtomobil körpüsü, həmçinin zəruri yerlərdə beton və daş istinad divarları inşa edilib. Yoloboyu torpaq işləri artıq 100 faiz icra olunub. Hazırda yol əsasının və çiyinlərin tikintisi, həmçinin asfalt-beton örtüyünün döşənməsi işləri aparılır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi işlərin 2023-cü ilin sonunadək başa çatdırmağı planlaşdırır.

Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yolu Cəbrayıl şəhəri və Hadrut qəsəbəsi də daxil olmaqla Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının 20-yə yaxın yaşayış məntəqəsini əhatə edir.

# “MədəniyyətimİZ” layihəsində növbəti görüş

Oktyabrın 17-də Beynəlxalq Muğam Mərkəzində “İRƏLİ” İctimai Birliyinin təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə həyata keçirilən ”MədəniyyətimİZ” layihəsi çərçivəsində növbəti görüş keçirilib.



Layihənin budəfəki qonaqları tanınmış opera müğənniləri, Xalq artistləri Fidan Qasımova və Xuraman Qasımova olub.

Əvvəlcə tədbirdə Ümummilli lider Heydər Əliyevin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

“İRƏLİ” İctimai Birliyinin layihələrlə iş üzrə katibi Riad Cəbrayılov qeyd edib ki, Fidan və Xuraman Qasımovalar klassik opera sənətinin milli kontekstdə inkişafına böyük töhfələr veriblər. Ulu öndər Heydər Əliyev onların fəaliyyətini daim diqqət mərkəzində saxlayıb, Prezident İlham Əliyev tərəfindən Fidan və Xuraman Qasımova bacıları dəfələrlə yüksək dövlət mükafatları ilə təltif edilib.

Daha sonra Fidan və Xuraman Qasımovalar Ulu öndərlə bağlı xatirələrini bölüşüblər. Diqqətə çatdırılıb ki, yaradıcı fəaliyyətlərinin 25-ci ildönümündə Heydər Əliyevin iştirakı onların fəaliyyətinə göstərilən böyük diqqətin təzahürü idi.

Görüşdə gənclərə öz tövsiyələrini verən sənətkarlar müasir dövrdə opera sənətinin təbliği istiqamətində daha yeni tendensiya və yaradıcı sənayenin özünəməxsus tələbləri olduğunu diqqətə çatdırıblar. Həmçinin peşəkar Azərbaycan musiqi mədəniyyətinin inkişafındakı xidmətləri, milli vokal məktəbinin yaranması və klassik ifaçılıq üslubunun təbliği, akademik pedaqoji fəaliyyət və peşəkar yanaşmanın tətbiqi ilə bağlı düşüncələrini dilə gətiriblər.

Musiqili görüşün bədii hissəsində Əməkdar artistlər Rəna Ağayeva və Nigar Məlikovanın pianoda müşayiəti ilə Xalq artisti Samir Cəfərov, Əməkdar artistlər Fəridə Məmmədova, Aqşin Abdullayev və Akademik Opera və Balet Teatrının solisti Fatimə Cəfərzadənin ifasında Azərbaycan və Avropa bəstəkarlarının əsərləri təqdim edilib.

Qeyd edək ki, “MədəniyyətimİZ” layihəsinin əsas məqsədi “Heydər Əliyev İli” çərçivəsində Ümummilli liderin həyat və fəaliyyətinin öyrənilməsi, habelə ölkə mədəniyyətinin inkişafı istiqamətində gənclərin iştirakçılığını artırmaqdır. Layihə çərçivəsində indiyədək bir sıra tanınmış mədəniyyət xadimləri ilə görüşlər keçirilib. Tədbirlərin əlamətdar il ərzində davam etdirilməsi planlaşdırılır.

**Lalə**

# “Heydər Əliyev uşaqların gözü ilə”

## Muzeydə tədbir keçirilib

Abdulla Şaiqin Mənzil-Muzeyində ”Heydər Əliyev uşaqların gözü ilə” adlı tədbir keçirilib.

Muzeyin direktoru Ülkər Talıbzadə Ulu öndərin 100 illiyinə həsr edilən növbəti tədbirin Azərbaycan uşaq ədəbiyyatının klassiki, böyük pedaqoq Abdulla Şaiqin ocağında keçirilməsinin rəmzi məna daşıdığını qeyd edib. Bildirib ki, uşaqların yaxşı təhsil və təlim-tərbiyə alması, Vətən və xalq üçün gərəkli övlad kimi yetişməsi Ulu öndərin daim diqqətində olub. Ümummilli lider deyirdi ki, uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaq.

Abdulla Şaiq adına kitabxananın direktoru Yəmən Əmirova, Cəlil Məmmədquluzadənin Ev-Muzeyinin direktoru Yeganə Məmmədova “Heydər Əliyev və uşaqlar” mövzusunda fikirlərini bölüşüblər.



Dərnək üzvləri olan uşaqların ifasında şeir və mahnılar səsləndirilib, səhnəcik göstərilib.

Ümummilli liderin uşaqlara həsr edilən kəlamlarını əks etdirən videoçarxlar nümayiş olunub.




Azərbaycan Aşıqlar Birliyinin (AAB) təşkilatçılığı ilə R.Behbudov adına Dövlət Mahnı Teatrında şair Nəbi Borçalının (1873-1945) 150 illik yubileyinə həsr olunan tədbir keçirilib.

# Şair Nəbi Borçalının 150 illiyi qeyd olunub

AAB-nin sədri Əməkdar elm xadimi Məhərrəm Qasımlı Borçalı aşıq mühitinin yetişdirdiyi görkəmli ədəbi simalardan olan şair Nəbi Borçalının həyatı və yaradıcılığı haqqında ətraflı məlumat verib. Bildirib ki, söz ustadının şeirləri zamanında Xalq şairi Səməd Vurğunun da diqqətini çəkib və məhz onun tövsiyəsi ilə mərhum folklorşünas alim Hüseynqulu Məmmədli, sonralar isə onun oğlu – folklorşünas, Əməkdar mədəniyyət işçisi Elxan Məmmədli tərəfindən əsərləri toplanıb və nəşr etdirilib. Qeyd olunub ki, Nəbi Borçalının şeirləri təkcə Borçalı aşıqlarının deyil, digər aşıq mühitlərindən olan sənətkarların repertuarında da mühüm yer tutur.

“Xalq qəzeti”nin baş redaktoru Əməkdar jurnalist Əflatun Amaşov son illərdə aşıq sənətinə göstərilən diqqət və qayğıdan, AAB-nin bu istiqamətdə həyata keçirdiyi tədbirlərin əhəmiyyətindən və Nəbi Borçalı kimi böyük saz-söz ustadlarının irsinin yaşadılmasının vacibliyindən danışıb.

Tədbirin bədii hissəsində aşıqlar Nəbi Borçalının şeirlərini ifa ediblər. Aşıqları balaban ustası Ələkbər Ələkbərov müşayiət edib. Bədii qiraətçilər – pedaqogika üzrə fəlsəfə doktoru, şairə Aynur Qafarlı və Azər İqrar şairin şeirlərini səsləndiriblər.

Sonda ağsaqqal ziyalı, iqtisad elmləri namizədi Əmirxan Babaşov yubilyarın yaxınları və doğmaları adından tədbirin təşkilatçılarına təşəkkür edib.

# Azərbaycan və Özbəkistan Rəssamlıq akademiyalarının əməkdaşlığı genişlənir

Özbəkistan Rəssamlıq Akademiyasının nümayəndə heyəti oktyabrın 13-də Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının (ADRA) qonağı olub.



ADRA ilə tanışlıq zamanı qonaqlara tədris prosesi, yaradıcılıq emalatxanaları və s. barədə məlumat verilib.

Özbəkistan nümayəndə heyəti akademiyada təhsil-tədrisin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib.

Sonra ADRA ilə Özbəkistan Rəssamlıq Akademiyası nəzdindəki İncəsənət təhsili üzrə müəllim və mütəxəssislərin yenidən hazırlanma və ixtisasartırma mərkəzi arasında əməkdaşlığa dair memorandum imzalanıb.

ADRA-nın rektoru professor Natiq Əliyev və Özbəkistan heyətinin rəhbəri, sözügedən mərkəzin direktoru Davron Şükürovun imzaladığı sənəddə iki təhsil müəssisəsi arasında təcrübə, tələbə-müəllim mübadiləsinin artırılması kimi məsələlər əksini tapıb.

Görüşdən sonra qonaqlar üçün paytaxtımızla tanışlıq turu da təşkil olunub.

# Şəkidə “Hekayəti-xırsi-quldurbasan” tamaşasının premyerası

Milli dramaturgiyanın banisi M.F.Axundzadənin ”Hekayəti-xırs-quldurbasan” komediyası Şəki Dövlət Dram Teatrında yeni quruluşda tamaşaya qoyulub. Oktyabrın 15-də səhnə əsərinin premyerası olub.



Tamaşanın quruluşçu rejissoru Orxan Həmidli, quruluşçu və geyim üzrə rəssamı Sahib Əhmədov, baletmeysteri Çingiz Novruzəliyev, musiqi tərtibatçısı Zeynəb Xəlilovadır. Rolları Əməkdar artist Rəhim Qocayev, aktyorlar Xəyal Salahov, Hariz Əhmədov, Nərmin Abbasova, Çingiz Novruzəliyev, Lalə Məmməd, İlkin Rüstəmov, Rəşid Mirizadə, Rəsul Məmmədrəhimov, Pərviz İsmayılov, Orxan Həmidli, Qurban Rəsulov, Elvin Mabudov, Azad Məmmədov və Rəşad Rüstəmov ifa edirlər.

Teatrdan verilən məlumata görə, cari ilin repertuar planına uyğun olaraq daha bir səhnə əsərinin – görkəmli alman ədibi Bertolt Brextin “Kuraj ana və uşaqları” pyesi əsasında tamaşanın stolarxası məşqlərinə başlanılıb. Tamaşaya teatrın baş rejissoru Əməkdar incəsənət xadimi Mirbala Səlimli quruluş verir.

# Sumqayıt teatrının “Yuxu”su çin olur...

## 55-ci mövsümün ilk premyerası

Sumqayıt Dövlət Dram Teatrı 55-ci mövsümün ilk premyerasına hazırlaşır. Oktyabrın 21-də balacalar üçün nəzərdə tutulmuş ”Yuxu” tamaşasının premyerası gerçəkləşəcək.




Nizami Mirzəyevin tərcüməsi, rejissor Fuad Kazımovun səhnələşdirməsi və quruluşunda ərsəyə gələn səhnə əsərində dünya xalqları nağıllarının qəhrəmanları cəm olub.

Bədii tərtibat Arif Müzəffərova, musiqi tərtibatı Telman Qəniyevə məxsusdur. Tamaşada Əməkdar artistlər Fəranə Musayeva, Növrəstə Həşomova, Xatirə Süleymanova, Elmira Kərimova, aktyorlar Dağlar Rüstəmov, Habil Xanlarov, Siyavuş Mahmudov, Vəfa Qurbanova, Gülnarə Qədirova, Aynur Hümmətova, Mətanət Əmirullayeva, Füzuli Qərənizadə, Sevda Cəlilova, Məryəm Hüseynli, İradə Zeynalova, Şəms Abdullayeva, Kamran Muradlı, Elmir Mehdiyev rol alıblar.

Tamaşa premyera günü üç seans (11:00, 13:00, 15:00) nümayiş etdiriləcək.

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (71)

### 1997-ci il 31 may

Xalq artisti, görkəmli xanəndə Sara Qədimovanı 75 illik yubileyi münasibətilə təbrik edib. *“Füsunkar Qarabağ təbiətinin zənginliyi ilə köklənmiş ecazkar səsinizlə yeni həyat verdiyiniz mahnı və muğamlar Azərbaycan musiqi sənətinin qızıl fonduna həmişəlik daxil olmuşdur”*, – deyə təbrik məktubunda vurğulanırdı.

### 1997-ci il 5 iyun

Məşhur rusiyalı müğənni İosif Kobzonun Respublika Sarayında keçirilən “Vida qastrolu” zamanı onunla söhbət edib.

*“...Məndən soruşdunuz ki, Sizin üçün nə oxuyum? Mənim istədiklərimin hamısını oxudunuz. 60-70-ci illərin mahnıları gözəl idi. O illərdə biz cavan idik, lakin bu mahnılar da ölməzdir... Məsələn, “Durnalar” mahnısı... Bu mahnının necə yaranması mənim xatirimdədir. Yan Frenkel onu Rəsul Həmzətovun sözlərinə bəstələmişdi... Mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də mahnının, musiqinin oynadığı rolu heç bir şey, heç bir vasitə oynaya bilməz. Sizin bu missiyanız sadəcə olaraq qastrol səfəri, konsertlər vermək deyildir. Bu, əlaqələrin, dostluğun möhkəmlənməsinə xidmət edən böyük işdir.*

*O ki qaldı “Vida qastroluna”, hesab edirəm ki, bu vida olmayacaqdır. Sizin 60 illik yubileyinizi keçirəcəyik, amma bundan sonra Siz dayana bilməyəcəksiniz. Belə potensialla, belə səslə, enerji ilə Siz evdə oturub qəzet oxuya bilməzsiniz”.* (Qeyd: İosif Kobzon daha 20 il səhnədə oldu və 2018-ci ildə vəfat etdi – red.).

### 1997-ci il 7 iyun

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Səməd Vurğunun “Fərhad və Şirin” pyesinin yeni quruluşda tamaşasına baxdıqdan sonra yaradıcı kollektivlə görüşdə çıxış edib.

*“Fərhad və Şirin” böyük şairimiz Səməd Vurğunun mədəniyyətimizə bəxş etdiyi ən böyük töhfələrdən biridir... Öz məzmunu, mənası ilə həddindən artıq təsiredicidir, ibrətamizdir. Bu əsər insan münasibətlərində pak, saf sevgi-məhəbbətin nə qədər güclü, nə qədər ülvi olmasını, eyni zamanda xəyanətin, satqınlığın nə qədər nifrət və ikrah hissləri doğurduğunu parlaq surətdə göstərir.*

*...Əsərə çox gözəl quruluş verilib. Bilirəm ki, Cənnət xanım (Səlimova – red.) tamaşanın quruluşçu rejissorudur. Onu çoxdan yüksək səviyyəli bir quruluşçu rejissor kimi tanıyıram... O ki qaldı ifaçılara, bir çoxunuzu tanıyıram, bəziləriniz də gəncsiniz, sizləri yeni görürəm. Hamınız öz rollarınızı çox gözəl ifa etdiniz. Bizim görkəmli aktyorumuz Mikayıl Mirzə baş rolu çox gözəl ifa etdi. Fədakar aktyorumuz Həsən Məmmədov uzun illərdir ki, teatrda, kinoda çox fəal çalışır. Çox məmnunam ki, Həsən Məmmədov yenə də səhnədədir və Xosrov rolunu da çox məharətlə ifa etdi.*

*Şirin rolunu ifa edən Məleykə Əsədova gəncdir. Çox gözəl, təbrik edirəm. Həmişə istəmişəm ki, bütün sahələrdə gənclər olsun... Bu, mütləq lazımdır. Çünki yaşlı nəsil həm gənclərə təcrübə verir, həm də sənətimiz davam edir...”.*

### 1997-ci il 17 iyun

Xalq artisti Fidan Qasımovanı 50 illik yubileyi münasibətilə təbrik edib. *“Milli musiqimizin ənənələrini davam etdirməklə Siz Azərbaycan vokal sənəti üçün yeni üfüqlər açmış, onu keyfiyyətcə yeni bir mərhələyə qaldırmısınız”*, – deyə təbrik məktubunda bildirilirdi.

***

Bəstəkar, Xalq artisti Cövdət Hacıyevə 80 illiyi münasibətilə təbrik ünvanlayıb. *“Siz ölkəmizdə milli simfonizmin yaradıcılarından biri kimi tanınırsınız. Sənətsevərlərin böyük rəğbətini qazanmış bir sıra əsərləriniz Azərbaycan musiqi mədəniyyətinin qızıl fonduna daxil olmuşdur”*, – deyə məktubda vurğulanırdı.

### 1997-ci il 18 iyun

Özbəkistana rəsmi səfəri zamanı Daşkənddəki Əlişir Nəvai adına Özbəkistan Dövlət Opera və Balet Teatrında Arif Məlikovun “İki qəlbin dastanı” baletinə tamaşa edib.

### 1997-ci il 4 avqust

Amerika Birləşmiş Ştatlarına ilk rəsmi səfəri zamanı Çikaqoda Azərbaycan Mədəniyyət Cəmiyyətinin nümayəndələri ilə görüşüb.

*“...Mən Vaşinqtonda gedib Kennedinin qəbrini ziyarət etdim. Orada gözəl sözlər yazılıbdır. Con Kennedi prezident andı içərkən amerikalılara müraciətlə deyibdir: “Siz düşünməyin ki, Amerika sizə nə etməlidir. Düşünün ki, siz Amerikaya nə etməlisiniz”. Bunlar çox müdrik sözlərdir. Mən də Kennedinin bu sözləri ilə sizə deyirəm: Siz düşünməyin ki, Azərbaycan sizə nə etməlidir. Düşünün ki, siz Azərbaycana nə etməlisiniz. Çünki insan harada olur-olsun yaşaya bilər. Bir az pis, bir az yaxşı. Mən həyatın hər bir üzünü görmüşəm. Moskvada, Kremldə oturmuşam və böyük bir villada yaşamışam. Amma sonra oradan gedib Naxçıvanda bir komada yaşamışam. Nə olsun? İnsan yaşayır. Mən də yaşadım.*

*Demək istəyirəm ki, insan harada olsa yaşayacaqdır. Şərt o deyildir. Şərt odur ki, insan milləti, Vətəni, torpağı üçün nə edir... Hər bir azərbaycanlı fəxr etməlidir ki, nəhayət, Azərbaycan xalqının dünya birliyinə daxil olan müstəqil dövləti vardır. Azərbaycanın məktəbləri, elmi Azərbaycan dilindədir. Heç bir Şərq ölkəsinin bizim qədər böyük mədəniyyəti yoxdur...*

*...Ürəyim istəyir ki, dünya azərbaycanlıları daha birləşsinlər, daha da sıx olsunlar... Belə olmasın ki, bu o Azərbaycandandır, bu isə bu Azərbaycandandır. Rəhmətlik Şəhriyar bu barədə nə deyib, yadınızdadır? İndi nə olsun ki, vaxtilə aramızı kəsdilər. Aramızı Araz kəsmədi, bizi parçaladılar. Nə olsun? Nə fərqi var ki, biri o tayda, biri bu tayda doğulubdur? Hamısı azərbaycanlıdır. Bütün azərbaycanlıların indi dünyada bir dövləti var. Bu, müstəqil Azərbaycan Respublikasıdır. Gəlin hamımız bu dövlətin, bu Vətənin ətrafında birləşək...”.*

**Hazırladı: V.Orxan**

***(davamı var)***

№78 (2047)
20 oktyabr 2023
www.medeniyyet.az

# Pianoya həsr olunmuş ömür

## Türkiyədə musiqiçi-pedaqoq soydaşımız haqqında kitab çapdan çıxıb

Bu günlərdə musiqişünaslardan biri mənə "Pianoya adanmış bir ömür" adlı kitab verdi. Türkiyədə nəşr olunan kitab azərbaycanlı pianoçu, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Ərzurum Atatürk Universiteti Gözəl sənətlər fakültəsinin professoru Həqiqət Məhərrəmovanın 75 illiyi münasibətilə hazırlanıb.

Həqiqət Ələsgər qızı Məhərrəmova 1948-ci il martın 8-də Şəkidə anadan olub. 1971-ci ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını (indiki BMA) bitirib. 1972-1974-cü illərdə təhsilini Leninqrad (Sankt-Peterburq) Dövlət Konservatoriyasının aspiranturasında SSRİ Xalq artisti P.A.Serebryakovun sinfində davam etdirib. 1974-cü ildə təhsilini fərqlənmə diplomu ilə başa vuraraq Azərbaycan Dövlət Konservatoriyasının İxtisas fortepiano kafedrasında pedaqoji fəaliyyətə başlayıb. 1980-1994-cü illərdə burada Fortepiano fakültəsinin metodiki seksiyasına rəhbərlik edib. 1997-1998-ci illərdə Pakistanın Lahor şəhərində pianoçu-solist kimi fəaliyyət göstərib. 1999-cu ildən Ərzurum Atatürk Universitetində dərs deyir.

Qeyd edək ki, Həqiqət Məhərrəmova hələ konservatoriyada təhsil aldığı zaman, 1969-cu ildə Azərbaycan bəstəkarlarının kamera əsərlərinin ən yaxşı ifası üzrə müsabiqədə birinci yeri tutub, 1979-cu ildə isə nəfəs alətləri ifaçılarının I Zaqafqaziya müsabiqəsində ən yaxşı konsertmeyster kimi fəxri diploma layiq görülüb. Onun konsert proqramına müxtəlif üslub və janrlarda əsərlər daxildir. İnterpretasiyasında həmişə inandırıcı olan bu əsərlər pianoçunun müasir düşüncə tərzini əks etdirir. Onun ifasında Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət səs yazıları olan CD-lər var.

Musiqi tənqidçiləri onun qüsursuz musiqi zövqünü, fortepiano musiqisi çalarlarını mükəmməl bilməsini, virtuozluğunu, ən başlıcası isə ifasının emosional təsir gücünü və dolğunluğunu vurğulayırlar. Pianoçunun elmi fəaliyyəti isə geniş spektrli istiqamətləri əhatə edir. Bunlar həm elmi-metodiki məqalələr, həm Azərbaycan bəstəkarlarının ayrı-ayrı əsərlərinin ifasına dair metodiki tövsiyələr, müxtəlif fortepiano ifaçılarının bədii yaradıcılıq ənənələrinin şərhi, həm də tədris proqramıdır.






Bundan əlavə, o, "Azərbaycanda fortepiano-ifaçılıq mədəniyyətinin təşəkkülü və inkişafı" adlı tədris vəsaitinin müəllifidir. Tədris vəsaitinə bir sıra çox maraqlı və mühüm aspektlər daxil edilib. Bunlar həm fortepianonun texniki təkamülünün xronologiyası, həm də fortepiano ifaçılığı və yaradıcılığı ənənələrinin qorunub saxlanılmasına və inkişafına təsir göstərən kreativ amillərdir.

Həqiqət Məhərrəmova Türkiyədə Beynəlxalq Ərzurum piano günləri (2007, 2010), Milli fortepiano musiqisi festivalları, habelə Beynəlxalq Ərzurum klassik musiqi festivalının (2012) layihə müəllifi və münsiflər heyətinin üzvü olub.

"Pianoya adanmış bir ömür" kitabında Azərbaycan, Türkiyə, Rusiya, Moldova və digər ölkələrdən tanınmış elm və incəsənət xadimlərinin sənətkar haqqında məqalə və fikirləri yer alıb.

Kitab Atatürk Universitetinin rektoru professor Ömər Çomaklının ön sözü ilə açılır. Rektor pianoçunun zəngin elmi ilə klassik musiqi sahəsindəki bacarıqlarını universitetin müvafiq sahəsinin inkişafında mühüm rol oynadığını bildirir. Gözəl sənətlər fakültəsinin dekanı Mustafa Bulat isə H.Məhərrəmovanı "müasir sənət elmini dolğun şəkildə, ləyaqətlə tədris edən müəllim kimi xarakterizə edir, pianoçunun tədrisə yeni ruh və baxış gətirdiyini vurğulayır.

Kitabda Azərbaycandan Xalq artistləri Fərhad Bədəlbəyli, Aqşin Əlizadə, Xəyyam Mirzəzadə, Azər Rzayev, Rauf Atakişiyev, professorlar Rəna Məmmədova, Aida Tağızadə və digər tanınmış incəsənət adamlarının ürək sözləri və məqalələri də yer alıb.

Nəşrdə musiqiçi xanımın qardaşı Xalq artisti Məbud Məhərrəmovun da fikirləri ilə qarşılaşırıq: "Mənəvi dünyama zənginlik qataraq xarakterimin formalaşmasında rol oynadın. Bununla bərabər, mənə hər zaman bir o qədər də diqqət və sevgi verdin. Buna görə sənə minnətdaram".

Həqiqət Məhərrəmovanın yaradıcılığının müxtəlif illərini əks etdirən fotolar, konsert və layihələrinin afişaları kitabı daha da rəngarəng edib.

**Lalə Azəri**

# "Bu gün əlaqələrimiz türk xalqlarının birliyi üzərində qurulub"

## Qardaş xalqların kino xadimlərinin III "Korkut Ata" festivalından təəssüratları

Qırğızıstanın TÜRKSOY-dakı nümayəndəsi **Kanat Mambetaliyev**:

– Çox gözəl tədbirdir. Artıq üçüncü dəfə keçirilməsinə rəğmən öz ənənələrini yarada bilib. Ümumiyyətlə, mən təkcə festivaldan deyil, həm də TÜRKSOY-un "Türk dünyasının mədəniyyət paytaxtı" layihəsinin əhəmiyyətini yüksək qiymətləndirirəm. Builki festivalda ölkəmizdən bir neçə film nümayiş olundu. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevə həsr olunmuş filmin nümayişi də bizim üçün çox vacib məqamlardan idi. Heydər Əliyev və Çingiz Aytmatova həsr olunan film maraqla qarşılanır.

Türkmənistandan festivalın münsifi **Dövlətmurad Xanməmmədov**:

– İlk dəfədir festivala qatılıram. Eyni zamanda Azərbaycana da ilk gəlişimdir. Bakıda olmaqdan, Şuşaya səfərimizdən hədsiz məmnunam. Türk dünyası böyük bir məfhumdur. Türk dünyası kinosuna bizim kinematoqrafçılar da öz töhfələrini verməkdədirlər. Həm sənədli, həm də bədii filmlərlə bu festivala qatılmışıq. Qoy türk xalqlarının birliyi əbədi olsun, çiçəklənsin. Biz uzun illərdir yeni Bakını görməyi arzulayırdıq. Deməк olar ki, ötən əsrdən biz Azərbaycana gələ bilməmişdik. Görürük ki, müstəqillik Azərbaycana çox şey qazandırıb. Bütün Türk dünyasına xoş günlər arzulayıram.



Qırğızıstanın ölkəmizdəki səfiri **Kayrat Osmanaliyev**:

– Bu festival, həm də Şuşanın "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi bütün türk xalqları mədəniyyəti üçün əlamətdar hadisədir. Hər bir ölkə öz mədəni dəyərləri və istedadları ilə zəngindir. Kino məktəbi də bu mədəniyyət təchizatlarında özünəməxsus mövqeyə malikdir. Keçmiş sovetlər birliyində olan türk dövlətlərinin hər biri eyni kino məktəbi keçib və çox zəngin ənənələrə sahibdirlər. Çox şadam ki, bu gün Qırğızıstandan olan tanınmış kino xadimləri tədbirə qatılıblar. Festivalın adını isə xüsusi qeyd etmək istərdim ki, Türk dünyasının ortaq dəyəri olan Dədə Qorqud bizi birləşdirir. Bizim birgə qədim keçmişimiz, ümumi olan bu günümüz və parlaq gələcəyimiz var. Biz birlikdə güclüyük. Kino isə mədəniyyətin vacib təbliğat sahələrindən biridir. Qoy bu birlik bizi sənətin bütün sahələrində bir-birimizə və dünyaya daha yaxından tanıtsın...

Azərbaycan hər zaman öz qonaqpərvərliyi, mədəniyyəti ilə seçilir. Burada mədəniyyətə, incəsənətə daim diqqətlə yanaşılıb.

Qırğızıstanın Xalq artisti **Nasira Mambetova**:

– Hər şey gözəldir, əhvalımız bayramsayağıdır. Biz gözəl günlərə, gözəl həyata başlayırıq. Sovet vaxtı da respublikalarımız bir-birinə yaxın idi. Amma bu gün əlaqələrimiz türk xalqlarının birliyi üzərində qurulmaqla yeni mərhələyə qədəm qoyur. Biz bundan çox məmnunuq. Arzum budur ki, tez-tez görüşək, mədəni mübadilələr çox olsun. Təkcə kino deyil, teatr, musiqi və sənətin müxtəlif sahələrini əhatə etsin.

Təəssüratları dinləyib qələmə aldı

**L.Azəri**

# "Azərbaycanda çox sevildiyimi görmək məni xoşbəxt elədi..."

Xəbər verdiyimiz kimi, 8-11 oktyabr tarixlərində paytaxtımızda Mədəniyyət Nazirliyi, TÜRKSOY, Heydər Əliyev Mərkəzi, Azərbaycan Respublikası Kino Agentliyi və Bakı Media Mərkəzinin təşkilatçılığı ilə III "Korkut Ata" Türk Dünyası Film Festivalı keçirildi.




Festivala qonaq qismində qardaş Türkiyədən də tanınmış kino xadimləri gəlmişdi. Azərbaycan tamaşaçısının da "Qurdlar vadisi" serialından yaxşı tanıdığı aktyor Sefa Zenginlə ayaqüstü söhbət etdik.

Sefa Zengin 1968-ci il mayın 26-da Türkiyənin Malatya şəhərində anadan olub. 1995-ci ildə İstanbul Universiteti Dövlət Konservatoriyasının Teatr fakültəsini bitirib. 1994-2001-ci illərdə Dormen Teatrında aktyor kimi çalışıb.

İstanbul Bilgi Universitetinin aktyorlarından ibarət "Teatr Kandela" tərəfindən səhnələşdirilən "Karmakarışık", "Popkorn", "Kare As" və "Oyun" tamaşalarına quruluş verib. "İkinin biri", "Troyalı qadınlar", "Qorxuram, sevgilim" tamaşalarında, "Kurşun Bilal", "İsimsizler", "Qızıl alma" və s. seriallarda rol alıb. O, 2003-2004-cü illərdə "Qurdlar vadisi" serialında oynadığı psixoloji problemləri olan Erdal Kömürcü personajı ilə böyük aktyorluq məharətini ortaya qoyub, kinoseverlərin rəğbətini qazanıb. Bu günədək 50-dən çox film və seriala çəkilən aktyor filmlərin səsləndirilməsində də iştirak edir.

Sefa bəydən ilk olaraq festivalla bağlı təəssüratlarını xəbər aldıq.

– Azərbaycana ilk dəfədir gəlirəm və burada olmaqdan çox məmnunam. Festival mənim üçün çox yaddaqalan oldu. Festival çərçivəsində Şuşaya da səfər etdik. Vətən müharibəsində Azərbaycanın qazandığı tarixi Zəfər, Qarabağın işğaldan azad olunması məni çox sevindirdi. Buna şahid olmaq mənim üçün böyük xoşbəxtlikdir.

Festivalın açılış və bağlanış mərasimlərinin gerçəkləşdiyi Heydər Əliyev Mərkəzi öz memarlığı ilə möhtəşəmdir. Doğrusu, bu bina məni heyrətləndirir və buranı görməyi çoxdan istəyirdim.

*– Festival müddətində paytaxtımızla tanış ola bildinizmi?*

– Əlbəttə. Bu müddət ərzində Bakının tarixi yerlərinə, mədəniyyət abidələrinə baş çəkmək imkanım oldu. Onu xüsusilə qeyd etmək istəyirəm ki, "Qurdlar vadisi" serialında canlandırdığım obraza görə Azərbaycanda da çox sevildiyimi görmək məni hədsiz dərəcədə xoşbəxt elədi.

*– Şuşaya da getdiyinizi söylədiniz. Bu il "Türk dünyasının mədəniyyət paytaxtı" missiyasını yerinə yetirən şəhərimiz sizdə nə kimi təəssürat oyatdı?*

– Şuşanı düşündüyümdən çox fərqli bir yer kimi gördüm. Çünki Şuşa işğal zamanı vandalizmə məruz qalıb. Cıdır düzünü və bir çox tarixi məkanları gəzdik, abidələrlə tanış olduq. Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün abidələrini görəndə çox təsirləndim, təəssüf etdim. Heykəllərdəki güllə yerləri... Heç heykəl də güllələnərmi? Bu hərəkəti etmək üçün çox yırtıcı bir ruha sahib olmaq lazımdır...

*– Hazırda hansısa filmdə, serialda çəkilirsinizmi?*

– Bu ayın sonunda TRT-nin rəqəmsal "Tabii" platformasında "Teşkilat-ı mahsusa –Trablus" ("Xüsusi təşkilat – Trablus") adlı yeni serial yayına başlayacaq. Serialda Şeyx Danyal obrazı ilə tamaşaçıların qarşısına çıxacağam. Yaxın aylarda üç yeni filmin çəkilişlərinə başlayacağıq. Bundan başqa, hazırda "Albalı bağçası" adlı teatr tamaşasında rol alıram.

*– Azərbaycandan və ya digər türk respublikalarından film təklifi gəlsə, qəbul edərsinizmi?*

– Məmnuniyyətlə. Ümid edirəm ki, belə bir təklif alaram (gülür)...

**Nurəddin Məmmədli**

Əliabbas Müznib – 140

# "Vətən övladıyam, zülm-zillət istirahətdir mənə..."

55 illik ömür. Ondan çox qəzet və jurnalın redaktoru, naşiri. 40 adda kitab, yüzlərlə bədii, publisistik əsər. O, qorxunc repressiya dalğasına düşməyib 20-30 il də yaşasaydı, bu göstəricilər qat-qat çox olar, bundan ədəbi, ictimai, maarifçi fikrimiz, ədəbiyyatşünaslıq elmimiz daha nələr qazanardı... Şair-publisist, dil tarixçisi, ədəbiyyatşünas-alim, maarifçi və tərcüməçi Əliabbas Müznib.

Tanınmış ziyalı XIX əsr və XX əsrin əvvəlləri klassik ədəbiyyatımızın toplanılması və tədqiqinə mühüm töhfələr verib. Yaradıcılığında milli düşüncə aparıcı yer tutub. Milli təfəkkürünə görə çar, həm də sovet hakimiyyətləri zamanı daim təqib olunub, təhdidlərlə üzləşib. 1912-ci ildə Sibirə sürgün edilib. 1937-ci ildə "burjua millətçisi" kimi bir daha mühakimə olunub və...

Əliabbas Müznibi anadan olmasının 140 illiyi münasibətilə yada salırıq.

Əliabbas Mütəllib oğlu Əhmədov (Müznib) 1883-cü ildə Bakı şəhərində dünyaya göz açıb. İbtidai təhsilini evdə anası Reyhan xanımdan alıb. Sonra mədrəsədə oxuyub və fars dilini öyrənib. Bir müddət sonra rus dili ilə maraqlanır və sənədlərini rus-tatar məktəbinə verir. Bu dili də yaxşı öyrənir. Ancaq maddi çətinliklər üzündən təhsilini davam etdirə bilmir. Atasının yanında daş yonur və xarratlıq edir...



Əliabbas erkən çağlardan ədəbiyyata, yaradıcılığa maraq göstərib. İti qələmi, çılğın milli təəssübkeşliyi ilə ədəbi aləmdə tanınmağa başlayıb. Özünə "Müznib" (ərəbcədən tərcümədə "suçlu" deməkdir) təxəllüsü götürür, ancaq başqa imzalarla da əsərləri, məqalələri dərc olunur. O vaxtlarda o, "Şərqi-Rus", "Tazə həyat", "İttifaq", "Zənbur" kimi qəzet və jurnallarda çıxış edir. 1910-cu ildə özü "Hilal" adlı qəzet nəşr etdirir. Həddindən artıq tənqidçi ruhu ilə diqqəti çəkən qəzetin ilk sayı hələ mətbəədə ikən müsadirə olunur. Bunun səbəbi isə qəzetdə müəllifin "Hökumət, ah, bir insan yeyən qurd, nə pul qoyar, nə bir yurd" misraları ilə başlayan şeiri idi.

Əliabbas Müznib "Tazə həyat" qəzetində və "Molla Nəsrəddin" jurnalının redaksiyalarında Mirzə Ələkbər Sabir, Seyid Hüseyn, Abbasqulu Kazımzadə, Məmmədəli Rəsulzadə və Kərbəlayı Vəli Mikayılov kimi milli düşüncəli ziyalılarla tanış olur. Bu tanışlıq və dostluq onun yaradıcılığına ciddi təsir göstərir. Şeir dili mürəkkəb ərəb-fars tərkibli sözlərdən təmizlənir. İlk satirik yazısı 1909-cu ildə "Zənbur" jurnalında işıq üzü görür. Maraqlı ədəbi yaradıcılığı ilə diqqəti çəkən Ə.Müznib 1910-cu ildə jurnalın baş redaktoru təyin edilir. Şairin 1911-ci ildə nəşr etdirdiyi "Şihab-sağıb" qəzeti də bağlanır. Müznib qısa müddət üçün həbs olunur. Daha sonra isə ömürlük Sibirə sürgün edilir. Üsyankar ruhlu şair Sibirdə də yazmaqdan, tutduğu yoldan qalmır. Qələmə aldığı şeirlərini Bakı mətbuatında dərc etdirir.

Filologiya üzrə fəlsəfə doktoru Qərənfil Dünyaminqızı araşdırmasında qeyd edir ki, Ə.Müznibin sürgündən həyat yoldaşı Səriyyə xanıma yazdığı məktubda belə bir cümlə var: "Vətən övladıyam, zülm-zillət istirahətdir mənə".

Çar II Nikolay 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar əfv fərmanı imzalayır. Ə.Müznib də əfv olunur və Bakıya dönür. Ancaq onun vətənə gəlişi heç də yaxşı qarşılanmır. O, guya məqalələrinin birində dini tənqid edib və ruhaniləri ələ salıb. Buna görə də Şeyx Molla Qəni tərəfindən ölümünə fətva verilir. O, dövrün vətənpərvər ziyalılarının köməyi ilə bu çətinlikdən də qurtarır... Yenidən mətbuat və nəşriyyat aləminə atılan ədib 1914-cü ildə böyük qardaşı Əbülfəz Mütəllibzadənin adına "Dirilik" adlı bir məcmuə nəşr etdirir. Sonra qələmdaşları ilə birlikdə "Açıq söz" qəzetini təsis edir. Eyni zamanda "Molla Nəsrəddin" jurnalının təsiri ilə nəşr olunan "Babayi-Əmir" və "Şeypur" satirik jurnallarının da redaktoru olur.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından ruhlanan Ə.Müznib "Azərbaycan", "İstiqlal" və "Bəsirət" qəzetlərində dövlətçilik ideyalarını fərəhlə təbliğ edir. "Azərbaycan" qəzetində bir-birinin ardınca "Azərbaycan istiqlalı", "Azərbaycan təfriqəsi", "Türk birlik ilə yaşamış və böylə yaşayacaqdır" və başqa milli ruh aşılayan məqalələri dərc olunur. "Yaşıl qələm" ədəbi birliyinə üzv olur və ədəbi müzakirələrin fəal iştirakçısına çevrilir. Bu illərdə o, "Şeypur" dərgisi ilə yanaşı, "Övraqi-nəfisə" jurnalına da redaktorluq edir.

Xalq Cümhuriyyətinin süqutundan sonra bir çox vətənpərvər ziyalılarımız kimi, Ə.Müznibin də qara günləri başlanır. O, 1926-cı ildə təqaüdə çıxır və heç yerdə iş tapa bilmir. Beş övladı, qoca ata-anası ilə çətin şəraitdə yaşamalı olur. Mətbuatla nəfəs alan ədib birdənbirə sevdiyi sahədən ayrılır və ədəbi araşdırmalara başlayır. 1927-1937-ci illər arasında o, XIX-XX əsr Azərbaycan ədəbiyyatı klassiklərinin əsərlərindən ibarət 10 kitab ərsəyə gətirir. Bu sırada "Türk tarixi", "Yusif və Züleyxa", "Tiran rolu", "Nəsrəddin məzhəkələri", "Aşıq Pəri və müasirləri" və s. kitabları maraqla qarşılanır.

Ə.Müznib 12 dekabr 1936-cı ildə həbs edilir. İstintaq işi 1937-ci ildə başa çatır. "Burjua-millətçi" fəaliyyətinə, bolşevizm əleyhinə iş apardığına, həmçinin əsərlərində Bakı kommunasına böhtan atmaqda, Osmanlı qoşunlarının Bakıya gəlməsini alqışlamaqda təqsirli bilinib və 8 il azadlıqdan məhrum edilib. Tanınmış şair-publisist 28 avqust 1938-ci ildə Vladivostokdakı xüsusi düşərgədə haqq dünyasına qovuşub. 1956-cı ildə ona ölümündən sonra bəraət verilib.

Ədibin "Seçilmiş əsərləri" 2003-cü ildə ədəbiyyatşünas İslam Ağayevin tərtibatı, ön sözü və lüğətlə çap olunub. Professor Hüseyn Həşimli isə 2004-cü ildə müəllifin "Ürək yanğısı" hekayəsini ön sözlə çap etdirib.

**Savalan Fərəcov**

# Rus Dram Teatrında “Albalı bağı”

## Aleksandr Şarovski: “Hətta ən sabit repertuarı, uğurlu tamaşaları olan teatrı arabir klassik əsərlə silkələmək lazımdır”

…Anton Pavloviç Çexov. Kiçik hekayələrin böyük ustadı və təsirli pyeslərin müəllifi. Çox az dramatik teatr kollektivi tapılar ki, repertuarında onun əsəri olmasın. Əgər müəlliflərin arasında Çexovun adı yoxsa, deməli, bu boşluğu doldurmaq lazımdır.

Nə vaxtdır ki, Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının repertuarında da belə bir boşluq var idi. Nəhayət ki, Çexovun pyesini orijinalın dilində eşidib görmək istəyən teatralların arzusu yerinə yetməkdədir. Oktyabrın 20-də və 21-də teatr hər kəsi A.P.Çexovun “Albalı bağı” pyesinin tamaşasına dəvət edir.

Biz də premyera öncəsi teatrın baş rejissoru, həm də “Albalı bağı”nın quruluşçu rejissoru Aleksandr Şarovski ilə söhbət edirik.



*– Aleksandr Yakovleviç, çoxdandır ki, Çexovun irsinə müraciət etmirdiniz…*

– 2003-cü ildə “Qağayı”ya quruluş vermişdim. Həmin əsəri Rusiyada festivalda oynadıqdan sonra tamaşanın iki əsas qəhrəmanının ifaçısını – Elmira Əbdürrəhmanova və Fərid Tağıyevi Moskva teatrları “ələ keçirdi”. Düzdür, tamaşa onların gedişi ilə bitmədi. “Qağayı” başqa aktyorlarla davam etsə də, əvvəlki tamaşa olmadı. Çünki həmin tamaşanı məhz o iki gənc aktyor üçün qurmuşdum.

O ki qaldı “Albalı bağı”na… Bilirsiniz, mənim fikrimcə, hətta ən sabit repertuarı, ən bacarıqlı truppası, uğurlu tamaşaları olan teatrı arabir klassik əsərlə silkələmək lazımdır ki, durğunluq yaranmasın. Çexov dramaturgiyası isə bunu bacarır. Tamaşa üzərində fikirləşəndə belə qərara gəldim ki, Çexovun özü də bu tamaşada olmalıdır. Tamaşanın lap əvvəlində Çexov personaj kimi səhnəyə çıxır və deyir: “Ölümümə az qalıb. Sonuncu pyesimi yazdım...”. Beləcə, səhnələr bir-birini əvəz etdikcə Çexov ön səhnəyə çıxır və nələrsə söyləyir.

Maraqlıdır ki, o vaxt, yəni 1903-cü ildə Çexov “Albalı bağı”nı da bütün pyeslərinin ilk səhnəyə çıxdığı teatra – Moskva Bədaye Teatrına, Stanislavski ilə Nemiroviç-Dançenkoya verir. Onlar da axşam pyesi oxumağa başlayırlar… Səhərədək həyəcan və göz yaşı tökməkdən yata bilmirlər. Bunu Anton Pavloviçə deyəndə o, təəccüblənir: burada ağlamalı nə var ki? Mən axı komediya yazmışam?

*– Yəqin Stanislavski də, Nemiroviç-Dançenko da “Albalı bağı”nın alt qatındakı faciəni görüblər: necə deyərlər, göz yaşı içində gülüş.*

– Çexov bütün rejissorlara tapmaca tapmağı təklif edir: “Albalı bağı” nədən bəhs edir?

*– Sizin bu tapmacaya cavabınız?*

– Çexov “Albalı bağı”nda saflığı, məhəbbəti, böyük ailəni, bağ evinin hüzurunu tərənnüm edən əhvalatı təsvir edib. Burada köhnə düşüncəli insanlarla yeni düşüncə tərzinin mübarizəsi gedir.




…Səhnədə isə işıq qurulur. Daha dəqiq desək, tamaşa başlayandan sonadək bütün epizodlarda işığın gurluğu, yayğınlığı, tutqunluğu, rəngi, nə vaxt hansı personajın üzünü işıqlandıracağı dəqiqləşdirilir. Yox, bu dəfə aktyorlar səhnə qiyafəsində deyillər. Demək olar ki, hamı tündrəngli məşq geyimindədir. Çünki jest kimi səhnə işığının parametrlərini də aktyorun tünd siluetinin ətrafında nizamlamaq rahatdır.

Məşq zamanı hiss olunur ki, tamaşa üzərində xeyli iş görülüb. Tamaşada teatrın böyük aktyor heyəti – Xalq artistləri Natalya Şarovskaya (Lübov Ranevskaya), Fuad Osmanov (Leonid Qayev), Ayan Mirqasımova (Şarlotta İvanovna), Əməkdar artistlər Mariya Dubovitskaya (Anya), Murad Məmmədov (Yermolay Lopaxin), Teymur Rəhimov (Trofimov), Yuri Omelçenko (Semyon Yepixodov), Həcər Ağayeva (Dunyaşa), Salman Bayramov (Firs), aktyorlar Rüstəm Kərimov (Çexov), Olqa Arsentyeva (Varya), Rüfət Nəzərov (Simeonov-Pişşik) və başqaları məşğuldur.

***

Təəssüf ki, ən bəlağətli ifadələr, sinonimlərin bolluğu, ən təsirli lirik ricətlərlə dolu təsvir müəyyən təəssürat yaratsa da, tamaşanın aurasını çatdırmaqda acizdir. Onu gərək qəlbinlə hiss edib ruhunla duyasan. Bu isə yalnız tamaşanı salonda əyləşib seyr etməklə mümkündür.

“Albalı bağı”nın seyrinə isə lap az qalıb. Cəmi bir neçə saat... Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı sənətsevərləri bu mövsümün ilk premyerasına dəvət edir: A.P.Çexov: “Albalı bağı”. Buyurun, gəlib seyr edin. Əlbəttə, əgər kassada bilet qalıbsa…

**Gülcahan Mirməmməd**

# Cazın dili ilə “danışan” rəsmlər

Xəbər verildiyi kimi, oktyabrın 14-də XVIII Bakı Beynəlxalq Caz Festivalı (6-15 oktyabr) çərçivəsində Heydər Əliyev Mərkəzində Əməkdar rəssam, özünəməxsus üslubu ilə tanınan Eldar Qurbanın “Cazın ağ quşları” adlı fərdi sergisi də açılıb.

Rəssamın budəfəki sərgisində isə müxtəlif caz ifaçılarının və kollektivlərinin təsvirləri, caz mövzusunda tablolar yer alıb.





“Rəssam üçün inkişafın göstəricisi, təbii ki, sərgilərdir. Sərgilərdə bu və ya digər rəssamın yaradıcılığının hansı səviyyədə olduğu aydın görünür... Yeni obraz, yeni mövzu yuxuda da gələ bilər, adi bir gündə hansısa insanın, hansısa təbiət təzahürünün təsirindən də doğa bilər...” – Eldar Qurban bu ilin yanvarında 75 illik yubileyinə həsr olunmuş “Ömürdən səhifələr” adlı fərdi sərgisi ilə bağlı “Mədəniyyət”ə müsahibəsində (müəllif Lalə Azəri) belə demişdi.

Sərgidə çıxış edən mədəniyyətşünas Telman İbrahimov bildirdi ki, İkinci Dünya müharibəsindən 1980-ci illərin ikinci yarısına kimi dünyada, eləcə də Azərbaycanda caz ağ-qara formada təsəvvür olunurdu: “1980-ci illərin ikinci yarısından başlayaraq caz rəngləndi. Eldar Qurbanın yaradıcılığında da cazın rəngləri çox gözəl ifadə olunub. Eldar Qurban yaradıcılığa muğamın təsvirləri ilə başlasa da, sonradan öz rəsm əsərlərini cazın dili ilə “danışdırdı”. Məlumdur ki, sovetlər dönəmində caza qulaq asmaq müsbət qarşılanmırdı. Eldar Qurban məhz o məhdudiyyətlərin olduğu dövrdə caza qulaq asanlardandır. Odur ki, rəssamın cazla bağlı yaradıcılığı təsadüfi deyil”.

Eldar Qurbanın əsərləri, ilk növbədə, yay assosiasiyası doğurur. Əlbəttə, bu, subyektiv təəssüratdır. Və yəqin ki, fırça ustasının rəsm əsərlərində istifadə etdiyi qaynar boyaların, isti rənglərin, ılıq çalarların bolluğundan doğur. Bu payız günlərində də Heydər Əliyev Mərkəzinə baş çəkənlərin də improvizə dolu rəsmlərə baxıb, cazı bir də tablolarda “dinləmək” şansı vardı...

**Samirə Behbudqızı**

# “Kəndirbazlığın sirlərini nəvələrimə də öyrədirəm”

## Mədəniyyətə könül verənlər

Xalqımızın qədim sənət növlərindən biri də kəndirbazlıqdır. Keçmiş zamanlarda kəndirbazlar bir qayda olaraq, el-obada tarla işləri başlamazdan əvvəl, ya da məhsul mövsümü başa çatanda öz məharətlərini göstərərmişlər. Sonralar toylarda, el şənliklərində də kəndirbaz oyunları təqdim olunmağa başlayır. İndi isə onları daha çox Novruz bayramı günlərində görmək mümkündür. Ancaq təəssüf ki, bu sənət getdikcə unudulmaqdadır...

“Mədəniyyətə könül verənlər” rubrikasında bu qədim xalq sənətimizi yaşadanlardan biri – kəndirbaz Məhəmməd Paşayevi oxucularımıza tanıdacağıq.

Məhəmməd Paşayev 1954-cü il dekabrın 11-də Ağdaş rayonunun Qəribli kəndində anadan olub. Yevlax rayonu Xaldan kənd tam orta məktəbində təhsil alıb. Babası da kəndirbaz olduğundan uşaqlıqdan bu qədim xalq sənətinə maraq göstərib. Hazırda Mərkəzi Aran Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Ağdaş Mədəniyyət Mərkəzində fəaliyyət göstərən “Kəndirbazlar” folklor kollektivinin rəhbəridir.

Müsahibim babasının 50 ilə yaxın bu sənətdə çalışdığını deyir: “1975-ci ildən mən də kəndirbazlıq sənəti ilə məşğul olmağa başlamışam. Övladlarım da kəndirbazlığa maraq göstəriblər. 10-12 yaşlı nəvələrimə də kəndirbazlıq sənətinin sirlərini öyrədirəm”.

Məhəmməd Paşayev ölkəmizdə hərbi hissələrdə keçirilən bayram tədbirlərində övladları və nəvələri ilə mütəmadi çıxışlar edir. Qocaman kəndirbaz Türkiyə, Rusiya, Misir, Özbəkistan, Qazaxıstan və digər ölkələrdə keçirilən festivallarda iştirak edərək bu qədim sənətin təbliğinə töhfə verib. O hətta 2016-cı ildə “Yetənək sizsiniz, Türkiyə” yarışmasına da qatılıb. Yarışmada bir-birindən maraqlı çıxışlar edən kəndirbaz yarımfinal mərhələsinə qədər irəliləməyi bacarıb. Dediyinə görə, yarışmadan sonra onu müəllim kimi həmin proqrama dəvət edibər, lakin təklifi qəbul etməyib.

Özünü bu peşədə təsdiq etdiyini söyləyən müsahibim kəndirbazlıq nömrələrində heç bir çətinlik görmədiyini bildirir: “Qatıldığım tədbirlərdə çıxışlarım əsasən, bir saat çəkir. Kəndir üzərində 15-ə yaxın nömrəmiz var. Velosiped sürmək, nərdivana çıxmaq, stulda əyləşmək, taxta üzərində butulkalarla gəzmək, uşaqları ayaqda gəzdirmək və s. kimi nömrələrimiz maraqla qarşılanır. İşin texnikasını öyrəndikdən sonra bütün nömrələri çətinlik çəkmədən yerinə yetirmək mümkün olur. Hər bir kəndirbaz kimi mə-





nim də sevdiyim nömrəm var. Qədim milli musiqi alətlərimiz zurna və nağaranın müşayiəti ilə kəndir üstündə ayaq oyunu oynayıram. Bu mənim ən sevdiyim nömrədir”.

İpin qurulması haqqında məlumat verən həmsöhbətim söyləyir ki, əvvəlcə iki tərəfdə yarım metrə yaxın dərinlikdə çuxur qazılır. Həmin çuxurun hər birinə bir ağac basdırılır. Daha sonra ip hər iki tərəfdən haça dediyimiz ağaca, yaxud metal konstruksiyaya bərkidilir. Onu da deyim ki, kəndirbazların xüsusi təhlükəsizlik kəməri yoxdur. Özümüzü qorumaq üçün balans dediyimiz alətdən istifadə edirik, o da bizim tarazlığımızı saxlamağımıza kömək olur”.

Kəndirbazlıq sənəti üzrə xüsusi məktəbin olmadığını deyən M.Paşayev insanların özlərinin bu sənətə maraq göstərməli olduğunu bildirir: “Çıxış etdiyim tədbirlərdə böyüklərlə yanaşı, uşaqlar da məni maraqla izləyir. Elə tədbir olur ki, çıxışdan sonra uşaqların valideynləri mənə yaxınlaşıb övladlarına bu sənəti öyrətməyimi istəyirlər. Təbii ki, mən də sevə-sevə bu təklifi qəbul edirəm. Amma etiraf edim ki, valideynlərin çoxu bu işin çətinliklərini görüb qorxurlar və uşaqlarını kəndirbazlıq sənətində görmək istəmirlər”.

Sonda qeyd edək ki, qədim kəndirbazlıq sənətini yaşadan M.Paşayevin zəhməti qiymətləndirilib. O, 2016-cı ildə Mədəniyyət Nazirliyi tərəfindən “Fəxri mədəniyyət işçisi” döş nişanına layiq görülüb.

**Nurəddin**

## Xatirə təqvimi — 21–24 oktyabr

### Azərbaycan

**21 oktyabr 1932** – Xalq şairi, ədəbiyyatşünas, ictimai xadim Xəlil Rza Ulutürk (Xəlil Rza oğlu Xəlilov; 1932 – 22.6.1994) Salyan rayonunun Pirəbbə kəndində anadan olub. 1988-ci ildə başlanan milli-azadlıq hərəkatında iştirak edib, 1990-cı ilin 20 Yanvar qırğınından sonra həbs edilib, Moskvada Lefortovo həbsxanasında saxlanılıb. Kitabları: “Hara gedir bu dünya”, “Məndən başlanır vətənim”, “Türkün dünyası” və s.

**21 oktyabr 1932** – Əməkdar mədəniyyət işçisi, aşıq Kamandar Həmid oğlu Əfəndiyev (1932 – 26.10.2000) Gürcüstanın Marneuli rayonunun Kürüstü Kəpənəkçi kəndində doğulub. 1987-ci ildə Tbilisidə Beynəlxalq xalq yaradıcılıq festivalının laureatı olub.

**21 oktyabr 1935** – Əməkdar elm xadimi, ədəbiyyatşünas, professor Fəridə Ağaəli qızı Vəlixanova (1935 – 4.9.2023) anadan olub. Azərbaycanda tərcüməşünaslıq elminin ilk tədqiqatçısıdır.

**21 oktyabr 1938** – Ədəbiyyatşünas alim, şair Əmin Abid (Əmin Mütəllib oğlu Əhmədov; 1898–1938) vəfat edib. Azərbaycan ədəbiyyatı tarixinə dair monoqrafiyaların, milli-azadlıq ruhlu şeirlərin müəllifidir. Repressiya qurbanı olub.

**21 oktyabr 1941** – Əməkdar incəsənət xadimi, aşıq Hüseyn Bozalqanlı (Hüseyn Cəfərqulu oğlu Quliyev; 1863-1941) vəfat edib. Tovuz rayonunun Bozalqanlı kəndində anadan olub.

**22 oktyabr 1919** – Bəstəkar Ərtoğrul Cavid (Rasizadə; 1919 – 14.10.1943) anadan olub. Böyük şair və dramaturq Hüseyn Cavidin oğludur. Romans və mahnılar bəstələyib. Azərbaycan xalq mahnılarını nota köçürüb.

**22 oktyabr 1920** – Nasir Məmməd Aranlı (Məmməd Salman oğlu Ağayev; 1920-1950) Ağcabədidə anadan olub.

**22 oktyabr 1921** – Azərbaycan xalçaçılıq sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı Kamil Müseyib oğlu Əliyev (1921 – 1.3.2005) İrəvan şəhərində doğulub. “Füzuli”, “Nəsimi”, “Nizami” portret-xalçalarının müəllifidir.

**22 oktyabr 1929** – Tanınmış filosof, akademik Fuad Feyzulla oğlu Qasımzadə (1929 – 3.8. 2010) Bakıda doğulub. Böyük mütəfəkkir şair M.Füzulinin fəlsəfi dünyagörüşü ilə bağlı tədqiqatların müəllifidir.

**22 oktyabr 1940** – Tərcüməçi, publisist, Əməkdar jurnalist Mailə Balabəy qızı Muradxanlı (1940-2010) Salyan şəhərində anadan olub.

**22 oktyabr 1970** – Azərbaycanda kukla teatrının yaradıcılarından biri, aktyor, rejissor Molla Ağa Bəbirli (15.9.1905 – 1970) vəfat edib.

**22 oktyabr 1990** – Əməkdar artist Narınc Murad qızı Məlikova (1917-1990) vəfat edib. Füzuli və Ağdam teatrlarında aktrisa kimi fəaliyyət göstərib.

**22 oktyabr 2020** – Əməkdar mədəniyyət işçisi, şair İsmayıl Cabir oğlu Dadaşov (23.3.1957 – 2020) vəfat edib. “Azərbaycanfilm”də musiqi redaktoru işləyib.

**22 oktyabr 2021** – Xalq artisti, xanəndə Canəli Xanəli oğlu Əkbərov (10.3.1940 – 2021) vəfat edib. Opera tamaşalarında baş rollarda (Məcnun, Kərəm, Aşıq Qərib, Şah İsmayıl və s.) çıxış edib.

**23 oktyabr 1953** – Tanınmış xanəndə Səxavət Əmirxan oğlu Məmmədov (1953 – 30.9.1991) Ağdam rayonunun Abdal-Gülablı kəndində doğulub. Xalq mahnıları, muğam və təsniflərin mahir ifaçısı olub. Avtomobil qəzasında dünyasını dəyişib.

**23 oktyabr 2002** – Prezident Heydər Əliyev böyük şair və dramaturq Hüseyn Cavidin 120 illik yubileyi haqqında sərəncam imzalayıb.

**23 oktyabr 2022** – Əməkdar artist, ustad xanəndə Süleyman Cümşüd oğlu Abdullayev (14.2.1939 – 2022) vəfat edib.

**24 oktyabr 1882** – Böyük şair-dramaturq Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə; 1882 – 5.12.1941) Naxçıvanda anadan olub. Azərbaycan ədəbiyyatında ilk mənzum dramların, tarixi-fəlsəfi pyeslərin (“İblis”, “Topal Teymur”, “Şeyx Sənan”, “Xəyyam” və s.) müəllifidir. 1938-ci ildə repressiya olunub, 1941-ci ildə Sibirdə sürgündə vəfat edib. 1982-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə nəşi Vətənə gətirilərək Naxçıvanda dəfn olunub.

**24 oktyabr 1919** – Azərbaycan Xalq Cümhuriyyəti hökumət və parlament üzvlərinin iştirakı ilə Dövlət Teatrının rəsmi açılışı olub. Hökumətin 1918-ci il 9 oktyabr tarixli qərarına əsasən, teatr işi Xalq Maarifi Nazirliyinin sərəncamına verilmiş və mövcud truppalar əsasında Dövlət Teatrının təşkili tapşırılmışdı. Teatrın direktoru Qulamrza Şərifzadə, direktor müavini Zülfüqar Hacıbəyov idi.

**24 oktyabr 1923** – Tanınmış aktyor Dadaş Nadir oğlu Kazımov (1923-1992) Bakıda doğulub. 1956-cı ildən Musiqili Komediya Teatrında çalışıb, filmlərdə çəkilib.

**24 oktyabr 1928** – Xalq artisti, bəstəkar İbrahim Qurban oğlu Məmmədov (1928-1993) Bakıda doğulub. Müxtəlif janrlarda əsərlərin, uşaqlar üçün “Tülkü və Alabaş” opera-baletinin müəllifidir.

**24 oktyabr 1929** – Musiqişünas, sənətşünaslıq namizədi, Əməkdar müəllim Solmaz Cəlal qızı Qasımova (1929-2016) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub.

**24 oktyabr 1929** – Ədəbiyyatşünas alim, professor Şəmistan Abdu oğlu Mikayılov (1929-2018) Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində doğulub. Ədəbiyyat dərsliklərinin müəllifidir.

**24 oktyabr 1931** – Əməkdar mədəniyyət işçisi Rimma Əli qızı Abdullayeva (1931-2017) Ağdam rayonunda doğulub. “Azərbaycanfilm” kinostudiyasında film direktoru vəzifəsində işləyib.

**24 oktyabr 1993** – Xalq artisti, ustad xanəndə, qəzəlxan-şair Hacıbaba Hüseynəli oğlu Hüseynov (15.3.1919 – 1993) vəfat edib. Çoxsaylı təsniflərin müəllifidir, istedadlı qəzəlxan kimi tanınıb.

**24 oktyabr 2002** – Bakıda Hüseyn Cavidin Ev-Muzeyinin açılışı keçirilib. Prezident Heydər Əliyev mərasimdə iştirak edib.

**24 oktyabr 2011** – Prezident İlham Əliyev Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 90 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**24 oktyabr 2017** – Prezident İlham Əliyev böyük şair və dramaturq Hüseyn Cavidin 135 illik yubileyi haqqında sərəncam imzalayıb.

### Dünya

**21 oktyabr 1833** – İsveçli mühəndis, ixtiraçı, Nobel mükafatlarının təsisçisi Alfred Nobel (Alfred Bernhard Nobel; 1833-1896) Stokholmda doğulub.

**21 oktyabr 1928** – Tatar əsilli Rusiya aktyoru Radner Zinyatoviç Muratov (1928-2004) anadan olub. Filmləri: “Uğur centlmenləri”, “Qızıl buzov” və s.

**22 oktyabr 1811** – Macar bəstəkarı Ferens List (Ferenc Liszt; 1811 – 31.7.1886) anadan olub. Məşhur əsərləri: “Faust” simfoniyası, “Macar” rapsodiyası, “Prelüdlər”.

**22 oktyabr 1870** – Rus yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1933) İvan Alekseyeviç Bunin (1870 – 8.11.1953) anadan olub.

**22 oktyabr 1919** – İngilis yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (2007) Doris Lessinq (Doris Lessing; 1919 – 17.11.2013) İranın Kirmanşah şəhərində doğulub. Atası İranda ingilis ordusunun zabiti olub.

**23 oktyabr 1920** – İtalyan uşaq yazarı Canni Rodari (Gianni Rodari; 1920-1980) anadan olub. “Çipollinonun sərgüzəştləri” əsəri ilə məşhurlaşıb.

**23 oktyabr 1844** – Alman rəssamı Vilhelm Leybl (Wilhelm Maria Hubertus Leibl; 1844-1900) anadan olub.

**24 oktyabr 1882** – Macar bəstəkarı İmre Kalman (1882-1953) anadan olub. “Silva”, “Sirk şahzadəsi”, “Monmartrın bənövşəsi” operettalarının müəllifidir.

**24 oktyabr 1911** – Məşhur rus aktyoru, rejissor, SSRİ Xalq artisti Arkadi İssakoviç Raykin (1911-1987) anadan olub.

**Hazırladı: V.Orxan**

№78 (2047)
20 oktyabr 2023
www.medeniyyet.az

# “Böyük qarın alqışı”

## Yakutiyadakı poeziya festivalında ölkəmiz də təmsil olunub

Rusiya Federasiyasının Saxa (Yakutiya) Respublikasında “Böyük qarın alqışı” VII Beynəlxalq Poeziya Festivalı keçirilib. 11-14 oktyabr tarixlərində keçirilən festivalda ölkəmizi şairi və publisist, Azərbaycan Yazıçılar Birliyinin Quba bölməsinin sədri Ramiz Qusarçaylı təmsil edib.



M.K.Ammosov adına Şimal-Şərqi Federal Universitetində təşkil olunan festivalının açılış mərasimində çıxış edən Ramiz Qusarçaylı ölkəmizlə bağlı danışıb. Universitetin tələbələri R.Qusarçaylının rus və yakut dillərinə tərcümə olunmuş şeirlərini söyləyiblər.

Qazaxıstan, Qırğızıstan, eləcə də Rusiyanın tanınmış yazıçı və şairlərinin də iştirak etdikləri festival günlərində Yakutiyanın tanınmış ədibləri – şair Semyon və yazıçı Safron Danilov qardaşlarının abidəsi, onların doğulduğu kənddə ev-muzeyləri ziyarət olunub, bir sıra görüşlər keçirilib.

Keçirilən tədbirlərdə, poeziya və musiqi axşamlarında iştirakçılara xalqımızın adət-ənənələri, ədəbiyyatımız barədə də məlumat verilib.

Festivalın bağlanış tədbirində Saxa (Yakutiya) Respublikasının mədəniyyət və mənəvi inkişaf naziri Afanasi Noyev Ramiz Qusarçaylını Azərbaycan və Saxa (Yakutiya) respublikaları arasındakı yaradıcı xidmətlərinə görə fəxri fərmanla təltif edib. Azərbaycanlı şairə Saxa (Yakutiya) Yazıçılar Birliyinin fəxri diplomu təqdim olunub.

“Böyük qarın alqışı” adlı Beynəlxalq Poeziya Festivalı 2012-ci ildən etibarən Yakutiyanın Xalq şairi Semyon Danilovun şərəfinə hər iki ildən bir keçirilir.

# “Bir kəmər, bir yol” üçün milyardlarla sərmayə




17-18 oktyabr tarixlərində Pekində keçirilən “Bir kəmər, bir yol” təşəbbüsü üzrə üçüncü forumda yüzdən çox ölkə təmsil olunub.

Forum çərçivəsində keçirilən biznes-konfransın iştirakçıları ümumilikdə 97,2 milyard dollarlıq sazişlər imzalayıblar.

Çin Xalq Respublikasının Sədri Si Cinpin bildirib ki, ölkəsi “Bir kəmər, bir yol” təşəbbüsü üzrə “yaşıl” infrastruktur, “yaşıl” energetika və “yaşıl” nəqliyyat kimi sahələrdə əməkdaşlığı dərinləşdirməyə davam edəcək.

Qeyd edək ki, Çin tərəfindən irəli sürülən “Bir kəmər, bir yol” təşəbbüsü tarixi İpək Yolunun dirçəldilməsi istiqamətində əsas marşrut (“Orta dəhliz”) sayılır. Azərbaycan da “Bir kəmər, bir yol” təşəbbüsünün iştirakçısıdır.

# Azərbaycanın turizm imkanları Hindistanda təbliğ olunub

Azərbaycanın turizm destinasiyası olaraq təbliği məqsədilə oktyabrın 16-da Hindistanın Nyu-Delhi şəhərində seminar keçirilib.




Dövlət Turizm Agentliyindən bildirilib ki, 50-dək turizm agenti və turoperatorun iştirak etdiyi seminarın əsas məqsədi ölkəmizin turizm imkanlarını nümayiş etdirmək və Hindistan turizm sənayesinin Azərbaycan haqqında məlumatlılığını artırmaqdır.

Seminarda Azərbaycan turizminə dair təqdimat və videoçarxlar nümayiş etdirilib, interaktiv sual-cavab sessiyası təşkil olunub.

Hindistanda Azərbaycanın turizmi ilə bağlı təbliğat tədbirləri oktyabrın 18-də Banqalorda gerşəkləşib. Ayın 28-də isə Mumbay şəhərində davam etdiriləcək.

Qeyd edək ki, 2023-cü ilin yanvar-sentyabr dövründə Hindistandan Azərbaycana səfər edənlərin sayı 77 mindən çox olub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 115 faiz artım deməkdir.

# Dünyanın ən zəngin üçlüyü

Dünyanın “milyarderlər klubu”nda üst sıralarda yerdəyişmə baş verib. “Bloomberg” agentliyinin yenilədiyi məlumata görə, “Amazon.com Inc” kompaniyasının qurucusu Ceff Bezos dünyanın ən varlı insanları siyahısında “LVMH Moet Hennessy Louis Vuitton” kompaniyasının rəhbəri Bernar Arnonu qabaqlayaraq ikinci yerə keçib.



“Amazon” səhmlərinin bahalaşması nəticəsində Ceff Bezosun sərvəti ilin əvvəlindən bəri 49,3 milyard dollar artaraq 156 milyard dollara çatıb. 2023-cü ildə 6,95 milyard dollar itirən Bernar Arnonun varidatı isə 155 milyard dollara enib.

“Bloomberg Billionaires Index” versiyasına görə, hazırda dünyanın ən varlı insanı “Tesla” kompaniyasının rəhbəri İlon Maskdır. 52 yaşlı biznesmenin varidatı ilin əvvəlindən bəri 96,8 milyard dollar artaraq 234 milyard dollara çatıb.

Qeyd edək ki, “Tesla” kompaniyasının səhmləri ilin əvvəlindən bu yana 106 faiz, “Amazon”un səhmləri 58 faiz bahalaşıb, LVMH kompaniyasının kapitallaşması isə 2,1 faiz aşağı düşüb.

Bu üçlüyün toplam varidatı (545 milyard dollar) Yaponiya və Almaniya kimi ölkələrin ümumi daxili məhsulundan çoxdur.

Bu arada Ceff Bezosun “Blue Origin” kosmik şirkəti kosmik logistikaya istiqamətlənən “Blue Ring” çoxfunksional platformanı təqdim edib. Beşillik istismar müddəti üçün nəzərdə tutulan platforma orbitdə yanacaqla doldurula və digər kosmik aparatları yanacaqla doldura bilər. “Blue Origin” işlənmə ilə bağlı bütün xərcləri üzərinə götürür və platformanı tam hazır xidmət kimi təklif edir.

Belə iddialı məqsədə nail olmaq üçün “Blue Origin” gələcəkdə minlərlə insanın kosmosda yaşayacağı və işləyəcəyini nəzərə alaraq, dəfələrlə istifadə edilə bilən raketlərin, orbit stansiyalarının və Aya eniş aparatlarının yaradılması üzərində işləyir.




## Olaylar, faktlar (20–23 oktyabr)

### 218 il əvvəl...

**21 oktyabr 1805-ci ildə** İspaniya və Fransanın birləşmiş donanması ilə Böyük Britaniyanın dəniz qüvvələri arasında Trafalqar burnu yaxınlığında (İspaniyanın Atlantik okeanı sahillərində) böyük döyüş olub. İngilis admiralı Horatsio Nelsonun donanması ispan-fransız qüvvələrini darmadağın edib. Qarşı tərəfin 18 gəmisi batırılıb, 7 min nəfər döyüşçüsü həlak olub. İngilislərin itkisi 1700 nəfər idi. Admiral Helson da döyüşdə həlak olub. Bu tarixi döyüş sayəsində Britaniya dünya okeanında hökmranlığı ələ aldı.

### 100 il əvvəl...

**20 oktyabr 1923-cü ildə** Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi (MİK) “Yeni Azərbaycan əlifbasının dövlət əlifbası kimi tanınması haqqında” dekret qəbul edib. Bir il əvvəl MİK latın əlifbasının ərəb əlifbası ilə bərabər hüquqa malik olması haqqında dekret vermşdi. Latın qrafikalı əlifbaya tam keçid 1929-cu ildə reallaşdı. 1939-cu ildə onu kiril əlifbası əvəzlədi.

### 67 il əvvəl...



**23 oktyabr 1956-cı ildə** Macarıstanda antisovet çıxışları (23 oktyabr – 4 noyabr) başlanıb. Aksiya iştirakçıları Macarıstanın “Varşava bloku”ndan çıxmasını, sosialist inkişaf yolundan əl çəkməsini tələb edirdilər. Çıxışlara rəhbərlik edən Macarıstan KP-nin islahatçı qanadının lideri İmre Had hökumətin başçısı seçildi. Moskvanın təlimatı ilə partiyada Yanoş Kadarın başçılıq etdiyi mühafizəkarlar hökuməti tanımadı və özləri “müvəqqəti hökumət” qurdular, sonra isə kömək üçün Moskvaya müraciət etdilər. SSRİ və “Varşava bloku” ölkələrinin hərbi kontingenti Budapeştə yeridildi, “antiinqilabi qiyam” yatırıldı.

### 45 il əvvəl...

**23 oktyabr 1978-ci ildə** Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Naxçıvan MSSR-in Naxçıvan rayonu Babək rayonu adlandırılıb. Muxtar respublikanın mərkəzi Naxçıvan şəhəri isə ayrıca ərazi-inzibati vahid (respublika əhəmiyyətli şəhər) olub.

### 42 il əvvəl...



**20 oktyabr 1981-ci ildə** Mingəçevirdə respublika energetikasının flaqmanı – “Azərbaycan” İstilik Elektrik Stansiyasının (İES) birinci bloku istifadəyə verilib. İnşası 1974-cü ildə başlanan stansiya Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrün ən möhtəşəm tikintisidir, vaxtilə ölkənin enerji tələbatının yarısını (2400 Mvt) təmin edib. Prezident İlham Əliyevin 2004-cü ildə imzaladığı fərmana əsasən, 20 oktyabr Azərbaycanda “Energetiklər günü” kimi qeyd olunur.

### 36 il əvvəl...

**21 oktyabr 1987-ci ildə** Heydər Əliyev Sov.İKP MK-nın Baş katibi Mixail Qorbaçovun təzyiqi ilə SSRİ rəhbərliyindən istefa verib. Sov.İKP MK-nın plenumunda Heydər Əliyevin ali orqandan – Siyasi Büro üzvlüyündən istefası qəbul olunub. Ertəsi gün Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsindən də istefa verdi. Bundan qısa müddət sonra ermənilər Qarabağ avantürasına start verdilər.

### 21 il əvvəl...

**22 oktyabr 2002-ci ildə** Azərbaycanın Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin “Merkuri-2” gəmi-bərəsi Bakının 130 kilometrliyində qəzaya uğrayaraq batıb. Bərədə olan 51 nəfərdən yalnız 9 nəfəri xilas etmək mümkün olub. Bu, Azərbaycanın gəmi nəqliyyatı tarixində ən böyük qəza idi.

**Hazırladı: V.Orxan**

# Meksikada yaşayan həmvətənlərimiz yerli orkestrlə birgə çıxış ediblər

Meksikada yaşayan musiqiçi həmvətənlərimiz – Mexiko Ştatı Simfonik Orkestrinin solisti Nana Babayeva və orkestrin üzvü Çingiz Məmmədov (hər ikisi skripka ifaçısı) konsert proqramı ilə çıxış ediblər.





Bu barədə Azərbaycanın Meksikadakı Səfirliyindən məlumat verilib.

Mexiko şəhərindəki Milli Mədəniyyət Mərkəzində Rodriqo Masiasın dirijorluğu ilə keçirilən konsertdə rus bəstəkarı İqor Stravinski və avstriyalı bəstəkar Anton Bruknerin əsərləri səsləndirilib.

Konsertin açılışında bəstəkar İ.Stravinskinin ritmik mürəkkəbliyi ilə seçilən “Skripka konserti”ni böyük ustalıqla ifa edən Nana Babayeva alqışlarla qarşılanıb.

# Türkiyənin qarşıdakı beş il üçün yol xəritəsi açıqlanıb

Türkiyənin qarşıdakı beş ili əhatə edəcək İnkişaf Planı hazırlanaraq parlamentə təqdim olunub.



Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sosial media hesabından məlumat yayılıb.

Məlumatda deyilir: “2053 hədəfləri əsasında hazırladığımız və Türkiyənin gələcək beş ili üçün yol xəritəsi olacaq 12-ci İnkişaf Planımızı tamamladıq. Peşəkar təşkilatlar və iş dünyasının təmsilçiləri ilə ortaq fikir əsasında hazırlanan plan müzakirə üçün Türkiyə Böyük Millət Məclisinə təqdim edilib”.

Plan “Bacarıqlı insan, möhkəm ailə, sağlam cəmiyyət”, “Sabit inkişaf, güclü iqtisadiyyat”, “Yaşıl və rəqəmsal transformasiya ilə rəqabətədavamlı istehsal”, “Təbii fəlakətlərə davamlı yaşayış sahələri, davamlı ətraf mühit” və “Ədalətə əsaslanan demokratik, yaxşı idarəçilik” olmaqla beş əsas istiqaməti əks etdirir.

# Qəzzadakı xəstəxana qırğınını heç kim boynuna götürmür

Oktyabrın 17-də axşam saatlarında Qəzza zolağında Əl-Əhli xəstəxanasının raketlə vurulması nəticəsində ölənlərin sayı 471 nəfər olub, 300-dən çox insan yaralanıb. Bu barədə Fələstin Səhiyyə Nazirliyi məlumat yayıb.



Raketin kim tərəfindən atılması məsələsinə isə hələ tam aydınlıq gəlməyib. İsrail tərəfi ona ünvanlanan ittihamları rədd edir və məsuliyyəti Fələstin tərəfdarı radikal qrupların üzərinə atır.

Oktyabrın 18-də İsrailə qısamüddətli səfər edən ABŞ Prezidenti Co Bayden də xəstəxanaya hücumda İsrailin əlinin olmadığına inandığını deyib. “Gördüklərimə görə, bunu siz (İsrail) yox, qarşı tərəf edib. Lakin bir çox insanlar buna əmin deyillər”, – deyə o, Təl-Əvivdə İsrailin Baş naziri Binyamin Netanyahu ilə görüşdə bildirib.

O, həmçinin əmin edib ki, Birləşmiş Ştatlar İsrail-Fələstin münaqişəsi fonunda Təl-Əvivin ehtiyac duyduğu bütün yardımları təmin edəcək. Bayden günahsız fələstinlilərin həyatını qorumaq üçün də lazım olan hər şeyi etməyə çağırıb.

“İsrail ordusunun Qəzza zolağına endirdiyi zərbələr nəticəsində mülki əhali əziyyət çəkir, lakin bu zərbələrin hədəfi Fələstin anklavındakı terror yuvalarıdır” – bunu isə Benyamin Netanyahu deyib.

Oktyabrın 19-na olan məlumata görə, Qəzzada ölənlərin sayı 3800-ü keçib. HƏMAS-ın İsrailə hücumu (7 oktyabr) nəticəsində ölü sayının isə 1300-dən çox olduğu bildirilir.

Qeyd edək ki, Co Bayden regiona səfəri zamanı İordaniyada Fələstin rəhbəri Mahmud Abbasla da görüşməyi planlaşdırırdı. Lakin Mahmud Abbas Qəzzadakı xəstəxanaya hücumdan sonra bu görüşə getməkdən imtina edib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymәti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 2765
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641